www.ipekchi.info

# İPƏKÇİ

1933-cü ildən nəşr edilir

AZƏRBAYCAN İPƏKÇİLƏRİNİN AÇIQ TRİBUNASI

№ 3 (2277) | 26 Aprel 2011-ci il | Qiymәti 20 qәpik

*"..."İpəkçi"nin yaradıcı kollektivinə haqq-ədalət uğrunda mübarizə aparmaqda, bütün qüvvələri səfərbər etməkdə, hər bir oxucuda müstəqil Azərbaycanın sabahına inam yaratmaqda böyük uğurlar diləyirəm",*

**Heydər Əliyev.**

## NETYY – Milli İnternet Mükafatı, müsabiqəsinə "İpəkçi" və "Şəkinin səsi" qəzetlərinin 3 veb-saytı qatılmışdır

Qəzetimizin əsas – "Ipekchi.info" saytı və 2 yardımçı – "Şəki tarixi" və "Fətəli xan Xoyski barədə" saytları Milli İnrtnet Müsabiqəsinə qəbul olunmuşdur. Müsabiqənin şərtlərinə uyğun olaraq 7 may tarixindən 14 may tarixinədək virtual jürinin səsverməsi ilə müsabiqənin nominantları müəyyənləşdirilməlidir. Hər nominasiya üzrə qalibi isə NETTY Akademiyası müəyyən etməlidir və qaliblərin adları 17 may tarixində, Beynəlxalq İnformasiya Texnologiyaları günündə, bütün nominantların dəvət ediləcəyi təntənəli mükafatlandırma mərasimində açıqlanmalıdır.

Yeri gəlmişkən, əlavə edək ki, ötən ildəki – 2010-cu ildəki, NETTY müsabiqəsi Şəki veb-məktəbinin böyük uğurları ilə yadda qalmışdır. Belə ki, o vaxt Şəkidə fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən müsabiqənin ilkin mərhələsinə

1."MicroEnn Group Production" veb-studiyasının 5;
2."Əlişahoğlu" veb-studiyasının 9;
3."Şahin" veb-studiyasının 2;
4."Şəki Bələdiyyəsi" qəzetinin baş redaktoru Murad Nəbibəyovun 5;
5."İpəkçi" və "Şəkinin səsi qəzetləri redaksiyasının 4 ;
6. Toğrul Qasımovun isə 1 saytı,

ümumiyyətlə, 8 nominasiya üzrə 26 Şəki saytı da qatılmışdır. Virtual jürinin 10 günlük, 28 aprel - 7 may tarixləri arası, səsverməsinin nəticəsi olaraq, may ayının 8-də bu 26 Şəki saytı arasından 5-nin, o cümlədən:

"MicroEnn Group Production" veb-studiyasının hazırladığı

1. "Şəki Şəhər İcra Hakimiyyətinin Rəsmi İnternet Səhifəsi" "Dövlət saytı" nominasiyası üzrə 8 sayt sırasında 24 səslə 3-4-cü yerləri bölüşdürərək;

"Əlişahoğlu" veb-studiyasının hazırladığı

2. Şəki Dövlət Dram Teatrı saytı "Mədəniyyət və incəsənət" nominasiyası üzrə 24 sayt sırasında 16 səslə 2-3-cü yerləri bölüşdürərək;
3. Elan və Reklamlar saytı "Servis-saytlar" nominasiyası üzrə 45 sayt sırasında 12 səslə 2-ci yeri tutaraq;
4. Erməni Terroru saytı "Azərbaycan" nominasiyası üzrə 36 səslə 20 sayt sırasında 1-ci yeri tutaraq;
5. www.ipekchi.info saytı isə "İnformasiya və xəbərlər" nominasiyası üzrə 50 sayt sırasında 15 səslə 1-2-ci yerləri bölüşdürərək

"Nominant sertifikatı"nı əldə etmiş və bu saytların hər birinin yaradıcı heyətindən 3 nəfər Gənc Tamaşaçılar Teatrında təşkil olunmuş təntənəli mükafatlandırma mərasiminə dəvət edilmişdir.

2009-cu ildə isə "İpəkçi" və "Şəkinin səsi" qəzetlərinin yardımçı saytlarından biri olan "Fətəli xan Xoyski barədə sayt" "Şəxsi saytlar" nominasiyası üzrə 24 səs toplayaraq öz qrupunda 2-ci yeri tutmuş və biz Rəşid Behbudov adına Mahnı Teatrının zalında təntənəli şəkildə təşkil olunmuş "NETTY-2009"-un mükafatlandırma mərasimə 3 dəvətnamə və "Nominantın sertifikatı" əldə etmişdik. Onu da əlavə edək ki, həmin il Şəkinin daha bir veb-saytı – "MicroEn Group Production"un hazırladığı "Şəki İcra Hakimiyyəti" saytı isə "Dövlət saytları" nominasiyası üzrə öz qrupunda 20 səslə 3-cü yeri tutaraq "NETTY-2009"-un nominantı olmuşdur.



NETTY-2010 un 3 qat nominantı A.Əlişahoğlu və "İpəkçi" qəzetinin redaktoru A.Məmmədov müsabiqənin mükalatlandırma mərasimində

## "Şəki-İpək" ASC-nin Baramaaçan istehsalatında istehsal nə vaxt bərpa olunacaq?

Məlum olduğu kimi, 1 aydan çoxdur "Şəki-İpək" ASC-nin Baramaaçan istehsalatında iş dayanıb. Ötən ilin əvvəllərində bu istehsalatın 3 növbəli iş rejiminə keçməsi planlaşdırılırdı. Lakin, Özbəkistan hökuməti barama ixracına icazə vermədiyinə görə təbii ki, "Şəki-İpək" ASC də Özbəkistandan barama ala bilmədi və Baramaaçan istehsalatını da 3 növbəli iş rejimin keçirmək mümkün olmadı. Bu il martın 18-i bu istehsalatda sonuncu iş günü oldu, yəni xam mal, yəni barama qurtardı. İstehsala azı 3-4 aylıq – yeni barama tədarükü başa çatmasına qədər, fasilə verildi,. Əlavə edək ki, bu istehsalatda 300 nəfər işləyirdi və orta əməkhaqqı da 120-130 manat idi.


Məmmədova Rəna

Bəs Baramaaçan istehsalatında istehsal prosesi konkret nə vaxt bərpa olunacaq? - Sualımıza "Şəki İpək" ASC-nin texniki direktoru **Şahin Əzimov** cavab verir ki, "konkret bir zaman söyləmək indi mümkün deyil, belə ki, bu il yay mövsümü gecikib, ağaclar təzə-təzə tumurcuqlayır, biz hələ indi toxum qoyulmasına başlamışıq, sonra barama yetişdiriləcək. Barama tədarükünün, barama qəbulunun başa çatması da o demək deyil ki, elə o dəqiqə işçiləri geri çağıracağıq və söz gedən istehsalında istehsal bərpa olunacaq. Bilirsiniz, Azərbaycanda 1 mövsümdə yetişdirilən barama, ən yaxşı halda bizim cəmi 15-20 günlük xammal ehtiyatımızdır. Yəni biz yalnız yerli xammala arxayın olub Baramaaçan istehsalatını işə salsaq, 15-20 gündən sonra xammalın tükənməsi səbəbi ilə yenə işi dayandırmağa məcburiyyətində qalacağıq . Biz əsas diqqət yetiririk xarici xammala, danışıqlar gedir, Çindən, yaxud İrandan barama almağı planlaşdırmışıq. Lakin onlarda da hal-hazırda bizdəki kimi barama yoxdur və mövsüm təzə-təzə başlayır və onlar da hələ deyə bilmirlər ki bizə nə qədər barama satacaqlar, hər şey ola bilər, elə olur ki, dünyanın hər yerində barama istehsalı üzrə məhsuldarlıq yüksək olur və elə də olur ki, heç kim fərli-başlı məhsul götürə bilmir, təbii amillərdən çox şey asılıdır, havalar soyuq keçə bilər v s. Ona görə barama qəbulundan sonra biz hələ fikirləşəcəyik, imkanlarımızı götür-qoy edəcəyik, yəni bizim nə qədər xammal ehtiyatımız var və onu necə işlətməliyik."


Xəlilova İradə

Bəs xaricdən gətirilən baramanın 1 kq-ı müəssiəyə neçəyə başa gəlir? – **Ş.Əzizov** bildirdi ki "Burada biz yerli baramanın 1 kq-ı üçün 3 manat ödəyirik, narazılıq edirlər ki azdır, amma maraqlıdır ki, xaricdən gətirilən baramanın 1 kq-ı bizə daha ucuz başa gəlir."

## Kəlağayı, yoxsa ərəfat şərfi?

### Bazarlarda milli geyim nümunəsini tapmaq qəlizləşib

Bu gün dünya moda Bu gün dünya moda trendlərində müxtəlif şərflər və yaylıqlar xüsusi yer tutur. Demək olar ki, bütün fəsillərdə məşhur dünya ulduzlarının, eləcə də sıravi Azərbaycan qadınlarının boynunda mövsümə uyğun şərf, yaxud yaylıq görmək olar. Hər bir xalq bu trendlərə öz milli koloritini əlavə etməyə çalışsa da Azərbaycanda bunun tam əksini görürük. Məsələn, bu gün qızlarımızın boynuna müxtəlf formalı və müasir üslubda işlənmiş "Ərəfat" şərfləri sarınır. Azərbaycanın milli geyimi olan və dünyanın heç bir yerində oxşarı olmayan baş örtüyü - kəlağıyını isə nə klassik, nə də müasir formada görmək mümkündür.

Kəlağayı tapmaq ümidi ilə İçəri şəhərdə qədim əşyaların satıldığı əraziyə baş çəkdik. Axtarsaq da, milli baş örtüyümüz olan kəlağayını tapa bilmədik. Amma satış məntəqələrində yalnız "Ərəfat şərfləri", milli ornamentli - buta naxışları ilə bəzədilmiş baş örtükləri satılırdı. Satıcılar baş örtüklərini ən çox Şəkidəki ipək fabrikindən aldıqlarını bildirdilər. Kəlağayının olmamasına gəlincə, satıcılar bunu fabrikdə məhsulun az istehsal olunması ilə əlaqələndirdilər.

"Baş örtüklərini əsasən Şəkidən, ipək fabrikindən alırıq. Bundan başqa, Şamaxıdan da gətirilən ipək kəlağayılar var. Ümumiyyətlə kəlağayılar çox az istehsal olunur. İsmayıllı, Basqal çarşabları da xüsusi yer tutur. Onlar çox gözəldirlər. Məhz bu səbəbdən Bakıya gələn turistlərin çoxu qadın baş örtüklərinə maraq göstərir", - deyə 25 ildən artıq antikvar əşyaların satışı ilə məşğul olan Vüqar Cəbrayılov vurğuladı.

Baş örtüklərinin qiymətinə gəlincə, müxtəlif məbləğə çarşablar, müasir ləçəklər tapmaq olar. Ən ucuz baş örtüyü 10 manatdan başlayır. Nisbətən qədim olan Şamaxı, Şəki baş örtükləri 100 manata satılırdı. Sovet dövründə Əmircanda fəaliyyət göstərən fabrikdə istehsal olunan çarşab 40 manata satılır. Satıcılar həmin çarşabdan 5-6 ədəd qaldığını bildirir.



Paytaxtımızın qonaqları, xüsusilə əcnəbi xanımlar Azərbaycan qadınının baş örtüyünə valehdirlər. Bu bir neçə əcnəbi xanımla görüşümüz zamanı məlum oldu. Məsələn, Norveçdən qonaq gələn Taran Ender adlı xanım baş örtüyünə xüsusi maraq göstərdiyini bildirdi. O, şəkillərdə kəlağayı bağlayan azərbaycanlı xanımlarına həsəd apardığını da gizlətmir.

"Doğrusu, başını bağlayan xanımlar çox gözəl olur. Sizin xalqın milli geyimləri, qadınlarınızın gen ətəkli donları, xüsusi zərli ipəkdən geyindikləri baş örtükləri, kəlağayılar insanı valeh edir", - deyə Taran Ender qeyd etdi.

Ukraynadan gələn Yulya Momoleyevna azərbaycanlı xanımların istifadə etdikləri xüsusi baş örtüyü haqqında eşitdiyini, lakin onu öz geyimində tətbiq etmədiyini bildirdi: "Mən Azərbaycan xanımının kəlağayısı, çarşabı haqqında çox eşitmişəm. Amma hələ də bu baş örtüyündən istifadə etməmişəm. Düşünürəm ki, mənə yaraşmaz. Amma yenə də yoxlayacağam".

Tanınmış modelyer, əməkdar incəsənət xadimi **Fəxriyyə Xələfova** ANS PRESS-ə açıqlamasında kəlağayının Azərbaycan xanımlarının milli geyimlərinin bir atributu olduğunu bildirdi. O, dəfələrlə öz geyim kolleksiyasında kəlağayıdan istifadə etdiyini deyir: "Bu yaxınlarda Gürcüstanda moda həftəsində olanda, kəlağayıdan ipək material kimi istifadə etdim. Bu gün kəlağayının müasirləşdirilmiş formaları olmalıdır. Düzdür, biz onun klassik formalarını saxlamalıyıq. Lakin müasir dövrdə onun müasir formalarından da istifadə olunmalıdır. Əsas odur ki, ipəyin keyfiyyəti yüksək olsun. Qədim kəlağayılar 100 faiz ipəkdən hazırlanırdı. Çalışmaq lazımdır ki, müasirləşdirilmiş kəlağayılarda da 100 % ipəkdən istifadə edilsin".

Modelyerin fikrincə, əgər kəlağayı kütləvi şəkildə satışa buraxılarsa, yaxşı olar ki, onun kənarında ipəyin faizi yazılsın. Təbii ki, müasir kəlağayının müasir naxışları, rəngləri də fərqli olmalıdır. kəlağayını standart ölçüsündən fərqli bir neçə ölçüdə satışa buraxmaq olar.

"Çünki onun ölçüsü çox böyükdür. O başa bağlanıb, şərf şəklində kənarlara paylaşdırmaq üçün nəzərdə tutulub. Bu gün kəlağayı daha balaca ölçüdə şərf, yaxud baş örtüyü kimi ola bilər. İstifadəçi onu fantaziyaya əsasən uyğunlaşdıra bilər", deyə Fəxriyyə xanım bildirdi.

Məşhur modelyer milli geyimlərin yalnız suvenir kimi istifadə edilməsini də istəmir: "Bundan gündəlik həyatda istifadə oluna bilər. Bu, hədiyyə kimi xüsusi qablaşdırmada olmalıdır. Onun etiketi olmalıdır. Arzu edirəm ki, Azərbaycan kəlağayısı "Made in Azerbaijan" adı altında dünyada tanınsın", - deyə **Fəxriyyə Xələfova** qeyd etdi.

**F. Xələfova** onu da bildirdi ki, kütləvi istifadə üçün kəlağıyı mütləq müasirləşdirilməlidir, istehsala yeni kəlağayı nümunələri buraxılmalıdır.

"Klassik kəlağayı əsrlər boyu istifadə edilə bilməz. Klassik formada, düm-ağ, kənarları tünd-mavi zolaqda naxışları olan baş örtüyü yalnız bir nümunədir. Bu ən azı psixoloji baxımdan düzgün deyil",- deyə əməkdar incəsənət xadimi vurğuladı.

**Xanım Xələfova** kəlağayının müasirləşdirilməsinin rəssamların işi olduğunu əlavə etdi: "Elə rəssamlarımız var ki, onların tabloları sənət işidir. Hər halda hazır tablonu da ora əlavə etmək olar. Bunu rəssamlar etməlidir. Bir neçə variant hazırlanmalıdır. Baxış keçirilməlidir. Mən də orada iştirak edə bilərəm. Yeniliklər olmalıdır. Bu baxımdan kəlağayını müasirləşdirmək olar".

Şəkidə ipək kəlağayı istehsal edən "Şəki-İpək" ASC-nin texniki direktoru Şahin Əzizovun ANS PRESS-ə verdiyi məlumata görə, hazırda ayda təxminən 800-900 kəlağayı istehsal edirlər. Onun sözlərinə görə, bu rəqəm sifarişdən asılı olaraq artırılır. Sifariş edənlər də var.

**Ş.Əzizovun** sözlərinə görə, ipək fabrikində bütün növ kəlağayılar, o cümlədən müasir kəlağayılar, şərflər də istehsal edilir. Məhsullarımız həm yerli bazarlarda, həm də xarici bazarda satılır. Şəkidə istehsal olunan kəlağayı əsasən İrana göndərilir. Kəlağayı ölçülərinə görə əsasən 1.55x1.55 metr və 1.65x1.65 metr olur. Başqa ölçülərlə hazırlanan baş örtükləri də var.

"Rənglərinə görə, ən çox soğanı kəlağayı dəbdədir. Bundan başqa ağ rəngli, kənarları göy, yaşıl, qara haşiyəli kəlağayılar istehsal edirik. Zövqlərə uyğun digər rəngli kəlağayılar da sifariş edilir", - deyə **Şahin Əzizov vurğuladı.**


Hüseynova Gülnarə, İsmayılova Məhəbbət - kəlağayıya gül vuranlar; ortada Quliyev Qüdrət, sexinin meneceri; Foto: "İpəkçi"qəzeti

Baş örtüklərinin rəngləri təbii üsulla, ağac gövdəsindən hazırlanan boyaqlardan istifadə edilir. Kimyəvi boyaq maddələrindən də müəyyən hallarda istifadə edilir.

Əsasən 6 növ kəlağayı var. Onlar həm ölçülərinə, həm də rənglərinə görə fərqlənir. Əsasən 4 rəngli, ağ, qara, soğanı və yaşıl rənglərdə olur.

"İpək çox bahadır. Buna görə də, bu parçadan hazırlanan məhsullar digərlərinə görə müəyyən mənada baha olur. Buna görə də, çox adam onu ala bilmir. Bu baxımdan bu biznesin gəlirli olmasını deyə bilmətəm. Kəlağayının əsasən 13 manatdan 15 manata başa gəlir. Hazırda dövlət dəstəyi yoxdur. Nazirlər Kabinetinin tapşırığı ilə İqtisadi İnkişaf Nazirliyilə ilə birgə layihəmiz var. Layihəyə əsasən lazımi avadanlıqlar gətiriləcək. Təkliflər içərisində bu sahədə çalışanlara müəyyən güzəştlərin edilməsi də var. Bundan başqa, parçaların üzərinə xüsusi naxışlar vurulması üçün printer alınıb", - deyə Şahin Əzizov qeyd etdi.

Kəlağayının müasirləşdirilməsinə gəlincə, **Ş.Əzizov** tələbat olarsa, bunu da edə biləcəklərini qeyd etdi.

Sonda bu sahədə kömək edə biləcək şəxslərə sözümüz budur ki, heç kəs milli baş örtüyümüzü oğurlamadan özümüz ona sahib çıxaq.

**Ziya Babayev**
*NS PRESS, 12.04.2011*

# Əmir Teymurun oğlu Əmiranşah tərəfindən Şəkiyə cəza dəstəsinin göndərilməsi və əvəzində, Şəki hökmdarı Seyid Əli Orlatın gürcülərlə birlikdə əks-hücumu

# – 1399-cu ilin yanvar ayında baş vermiş Alıncaq qalası ətrafındakı toqquşma

Aydın Məmmədovun nəşr olunmamış "Əmir Teymurun Şəkiyə hücumları" monoqrafiyasından bir hissə (fars dilindən tərcümələr müəllifindir)

Əmir Teymur öz imperiyasının paytaxtında da çox qərar tutmur və 1398-ci ilin avqustunda Hindistana yürüş edir… O, bundan əvvəl, İrandan qayıdarkən, Azərbaycan vilayətinin və onun ətrafındakı ərazilərin idarəsini öz oğlu Əmiranşahın ixtiyarına buraxmışdı. Ş.Ə.Yəzdiyə görə Əmirzadə Əmiranşah Azərbaycan taxtgahını və Hülaku xan ulusunu elə məharətlə idarə edirmiş ki, ətarf və əknafın (–yaxınların) heç bir padşah zamanında [padşaha] itaət etməmiş sərdarları onun yanına gəliblərmiş[1]. Həmin müəllifin bu sözlərinə və müvafiq hadisələrin sonrakı gedişatı barədə yenə onun və həm də, N.Şaminin qələmə aldıqlarına əsasən güman edə bilərik ki, 1396-cı ilin payızına qədər yəqin ki, Şəki hökmdarı Seyid Əli Orlat da Əmirzadə Əmiranşahın yanına gedibmiş. "Zəfərnamə"lərə görə, göstərilən ildə (payıza qədər) Əmirzadə Əmiranşah Xoy ətrafında ov edərkən atdan yıxılmış və beyni silkələnmişdir. Bu hadisədən sonra isə ağlı sürətlə azalma başlayır, nəticədə bir sıra qeyri-düzgün işlərə yol vermişdir. O cümlədən, 1397, yaxud 1398-cü ilin payızında, atasının əsas ordusunun ondan çox-çox uzaqlarda olmasını nəzərə almayaraq Şəkiyə qoşun çəkmiş və bu ölkəni qarət etdirmişdi. Əvəzində, Şəki hökmdarı Seyid Əli Orlat 1399-cu ilin başlanğıcında gürcüləri də götürüb, Alıncaq qalasını mühasirədə saxlayan teymurilərin üstünə gedir…

Naxçıvan şəhəri yaxınlığındakı həmin istehkamda Cəlairlərin illər boyu topladıqları böüyk bir xəzinə saxlanılırdı və qala neçə il idi ki, Sultan Əhmədin oğlu Sultan Tahir və Cəlair əmirlərindən Əmir Altunun başçılığı ilə Əmir Teymurdan qoşunlarından müvəffəqiyyətlə müdafiə olunurdu. Teymuri əmirləri növbə ilə Alıncaq qalasının mühasirə etməkdə idilər və son nəhayətdə Əmir Teymur tərəfindən bu iş Hacı Seyfəddinin oğlu Sultan Səncərə və Əmirzadə Əmiranşahın məxsusi qoşunlarına tapşırılmışdı. O dövrlərdə Alıncaq qalasını görmüş İspaniya səfiri Klavixo (vəfatı: 1412) onu belə təsvir edib:

*O dağın başında yerləşib, divar və bürclərlə əhatə olunub, divarlardan içəridə isə çoxlu üzümlüklər, bağlar, becərilmiş sahələr, çoxlu su və otlaqlar; dağın lap başında isə qəsr durur*[2].

Məlum əks-hücum ərəfəsində, Alıncaq qalası daxilində nizam-intizam zəif idi. Qalanın müdafiəsinə məsul olan şəxslər bir-birləri ilə yola gedə bilmirdilər. İbn Ərəbşahın yazdığına görə, hətta iş o yerə gəlib çatmışdı ki, qalanı müvəqqəti tərk etmiş Əmir Altun geri döndükdə onu içəri buraxmamışdılar[3]…

Həmin illərdə Sultan Əhməd Cəlairin əlində yalnız Bağdad və İraq-i Ərəbin bir hissəsi qalmaqda idi. Lakin Gürcü çarı Georgi hələ də Cəlairlərin ali hakimiyyətini tanımaqda idi və Tiflisdə kəsdirdiyi sikkələr üzərində Sultan Əhmədin adını öz adından əvvəl vurdururdu[4]. Yəqin ki 1399-cu ilin başlanğıcında gürcülərlə Şəki hökmdarının Alıncaq qalasına birlikdə etdikləri hücumun sifarişçisi də Sultan Əhməd idi və bu işdə əsas məqsəd isə Əmir Teymurun gözlənilən növbəti İran yürüşünə qədər, xəzinənin oradan çıxarılması[5] imiş.

Ş.Ə.Yəzdi yazır:

*"[Əmirzadə Əmiranşah] Həmən ilin (– 1397, yaxud 1398) payızında, Seyid Əli Orlatdan bir müxalifət şübhələndi ki, ona görə və təhqiq etdirmədən ləşgər çəkdi və Onun vilayətini qarət etdirdi; və elə ki [şahzadənin[6]] ovqatının xarab olması söz-söhbətləri Onun eyş və işrət və qələt-e iltifatında, məmləkətlərinin işlərinin idarə edilməsi və tərtibində çoxalma tapdı, xəbis təbiətli gürcülər[7] ki… onların fəsad və tüğyanı Həzrət sahib qiranın (– Əmir Teymurun) möhkəm qəhr [şüşəsində[8]] cilovlanmış idi, ürəkləndilər; və o müddətdə ki, o həzrət (– Ə.T.) Hindistan yürüşünə buyurmuş idi, cəsarət ayağını mütilik cızığından kənara qoyub, müxalifət başlatdılar; və bu vaxt Sultan Əhməd Cəlairin oğlu [Sultan Tahir[9]] ona itaət edən bir qism camaatla Alıncaq qalasıda idi və Sultan Səncər [bin] Hacı Seyfəddin, qəza cərəyan fərmanın hökmü üzrə uzun sürən müddətdə, yenə də o qalanı mühasirə edir və qalanın ətrafı[nı] cəmi tərəflərdən "daşdan bir divar" [halına] gətirmiş idilər. Belə ki bir kəs qaladan bayıra gedə bilməmişdir və bir kəsə [də] bayırdan qalaya yol yoxdur; və istehkam əhli yaxşıca təngə gəlmiş idilər. Bu fürsətdə, qələbə əzmli gürcülər, dinsizləri topladılar və Seyid Əli Şəki, əgər ki islam şüarında tanınmış idi, onunla əlaqədar ki, Onun vilayətini tarac etmiş idilər, belə ki deyilmiş oldu, [indi O,] gürcülərlə ittifaq etdi və Sultan Tahir ki, mühasirə işinin təzyiqi canına və biçaq sümüyünə [dirənmiş idi[10]], [Onu] xilas etmək əzmi ilə Alıncağa üz tutmuş oldular və Azərbaycan vilayətinə girib, dostluq edənlər (– Seyid Əli Orlat) və düşmənlər (– gürcülər) müsəlman vilayətlərini xarab etməyə əl atdılar; və elə ki Sultan Səncər bu haldan agah oldu, qaladan çəkildi və Təbrizə getdi və vaqiənin surətini Əmirzadə Miranşahın ərzinə yetirdi. Şahzadə öz oğlu Əmirzadə Əbubəkr ilə Sultan Səncər və Hacı Abdulla və Məhəmməd Qəzğun və Şeyx Məhəmməd tavaçi kimi əmirlərə və digər ümərəya o fitnə odunu söndürmək fərmanı verdi və onların hamısı Alıncaq tərəfə rəvan [oldular[11]]; və elə ki gürcülər Alıncaq istehkamına yetişdilər, Sultan Tahir [Cəlair xəzinəsini də götürüb, yaxın adamlarından ibarət bir dəstə ilə[12]] aşağı düşdü və Onlarla birləşdi; və qalanı Hacı Saleh və Seydi Əhməd Oğulşanı və üç nəfər gürcü aznauruna tapşırdılar; və gürcülər böyük ümərəya və bahadırlara "aznaur" deyirlər və necə ki onların məqsədləri Sultan Tahiri xilas etmək idi, muradlarının hasil olmasından sonra geri döndülər; və o yaxınlarda da Təbriz ləşgəri Onlara çatdı və qoşunun tərəfləri cərgəyə düzülüb cəngə çıxdı; və necə ki gürcülər qələbə qayəli (–üstün) idilər, Onların aznaurları tərsliyə gəldilər və Təbriz ləşgərinin sağ cinah və sol cinahına hücum etdilər və Seyid Əli Şəki mərkəzdən irəli çıxıb intiqam üçün Əmirzadə Əbubəkrin üstünə getdi. Baxmayaraq ki, cavanbəxt şahzadə bir müjdə (–yeniyetmə) yaşında idi, səbat (–mətanət) ayağını dirəyib [, yəni qaçmayıb] igidlik kamanının hər cübbə (–60 ədədlik ox kisəsi?) oxunu atdı və altmışda zəfər açdı və [belə ki, oxlardan] biri Seyid Əlinin dəbilqəsinin zireh ətəyi üzərinə[, yəni zərif hissəyə] getdi və bundan keçib şah damarına [sancıldı[13]] və o qorxmaz həlak torpağı üzərinə yıxıldı: "vəlair və aş-şəl fi əl-müxbir misl əl-əsəd"[14]. Amma elə ki gürcülər qalib olmuş idilər və Təbriz ləşgəri qovulub, şahzadə də geri qayıtdı və sağ-salamat bu təhlükəli yerdən kənara çıxdı; və gürcülər [də] öz məkanlarına qayıtdılar."*[15]

Bu hadisədən düz bir il sonra, Əmir Teymur 1399/1400 (–h. 802)-cü illərin qışında Qarabağda olarkən, Alıncaq qalası ilə bağlı məlum hadisənin təhqiq olunması üçün məhkəmə qurdurdu. Bu barədə Ş.Ə.Yəzdinin yazdıqları, mühakimə prosesinin gedişat və nəticəsi ilə yanaşı, həm də Əlincaq döyüşünün bəzi təfərrüatına da aydınlıq gətirir:

*"Bu əsnada Əmirzadə Miranşahın ümərası barədə fərman-e əla sadir oldu ki, gürcülərin müharibəsində ki, Alıncaq ətrafında – hadisə bəyən edilmiş idi, hamısı təqsir etmiş idilər və fərar edib[lər]. Böyük Yirğu Divanında (–hərbi məhkəmədə) soruşdular; Əmirzadə Şahrux və əmirlər fərmanın hökmü üzrə [onları] əmrə tabe olmağa qaldırdılar və elə ki sual-cavabdan və təftiş və təhqiqdən sonra halın surətini, necə ki vaqiə olmuş idi, humayun ərzin izzətinə çatdırdılar, Ələtabanın (–Ə. T.un) vacib hökmü çıxdı ki, Hacı Abdulla Abbas və Məhəmməd Qazan üçün dal və qabaq yasaq (– cəza) çubuğu vursunlar və Yəmən Həmzəye Əprəddin barədə ki –hamıdan əvvəl qaçmışdı, işarət oldu ki yasağına yetişsin [, yəni öldürülsün] və [yalnız] şahzadələrin xahişi ilə canına aman tapıb, Onun üçün də dal və qabaq çubuğu vurdular və onların hər birindən cərimə olaraq üç yüz at tələb etdilər və Əmirzadə Miranşahın bütün əyan və nökərləri üzrə halın hökmü ilə əllisindən [də] iki yüz-üç yüz at həvalə olunmuşun [üstünə[16]] gəlindi və bütün o atları pənahı zəfər qoşunların piyadalarına qismət etdirdilər; və Əmirzadə Əbubəkr barəsində padşahanə atifət ki, o cəngdə igidlik göstərmiş idi və Seyid Əli Şəkini oxun bir cübbəsi ilə həlak torpağına atıb – əzizlənən və nəvziş siniflərinə ixtisas çəkdi [, yəni əzizlənən və nəvaziş göstərilən şəxslərdən oldu]. Beyt:*

*Şahdır himayəçi, üzü bu zamandan layiq hörmətə,*
*qəhr və lütf bəxş etdi hər rəfiqinə."*[17]

Əgər, "protokol"da qeyd edilən əyan və nökərlər ifadəsini "əmirlər", yaxud "qoşun başçıları" mənasında qəbul etsək, məlum Alıncaq hadisəsində Təbrizdən əks-hücuma keçən və son nəhayətdə Şəki – Gürcüstan qoşunları tərəfindən məğlub edilərək geri otuzdurulan Teymuri qüvvələrinin əsgəri sayı barədə bu nəticəyə gəlmək olar: Əgər N.Şamidə Alıncaq döyüşündən fərar etmiş 50-dək əmirin cəzalandırılmasından söhbət gedirsə və Əmir Teymurun "memuarları"na görə isə ən aşağı rütbəli əmirin əlinin altında azı 1000 nəfər durmalı idisə[18], bu halda, həmin döyüşə Teymuri tərəfindən 50 mindən çox adamın çıxdığını güman edə bilərdik; amma Əmirzadə Əmiranşahın o qədər əsgərə malik olması ağlabatan[19] olsa da, 50 min nəfəri bütünlüklə Alıncağa göndərməsinə gələndə, bu iş heç də inandırıcı görünmür. Həm də diqqət yetirəndə ki, Əmir Teymur Xəmşa dərəsinə ilğar (– çevik hücum əməliyyatı) təşkil edərkən ordusundakı hər on nəfərdən yalnız 3-nü bu işə cəlb etmişdir, hansı ki bu barədə bir qədər sonrakı iqtibasda söhbət gedəcək, onda, ehtimal edə bilərik ki, o dövrlərin ənənələrinə görə ilğar üçün ordunun hər on nəfərlik dəstəsindən yalnız 3 süvari seçilməli idi və yəqin ki, Əlincağa tələsik əks-hücum edən Teymurilər də həmin qaydaya riayət etmiş, Əmirzadə Əmiranşahın 50 minlik ordusundakı hər minlikdən yalnız 300 süvarini, yəni cəmi 15 min nəfəri ora göndərmişlər. Əgər məlum məhkəmədə də hamıdan əvvəl qaçmaqda təqsirləndirilmiş üç əmirin hərəsindən cərimə olaraq 300, digərlərindən 200 – 300 arası miqdarında at tələb edilibsə, heç şübhə qalmır ki, əks-hücum zamanı hər qoşun yalnız 300 süvaridən ibarət imiş və onlar döyüşdən qaçdıqlarına görə hamısının atlarının əllərindən alınmasına qərar verilmişdir. Yeri gəlmişkən, məlum döyüşdə iştirak etmiş süvarilərin atlarının əllərindən alınması məsələsində, hələ bizdən 3 əsr əvvəl, gürcü tarixçisi P. Qorqicidze də bizim kimi nəticə çıxararıb:

*"…[Əmir Teymur Əlincaq hadisəsinə görə Miranşahın] üç yüz cəsur döyüşçüsünü atdan düşürdü, onarın atlarını payladı orduya, özlərini isə məcbur etdi qabaqda piyada getməyə"*[20]

O ki qaldı yalnız Hacı Abdulla Abbas, Məhəmməd Qazan və Yəmən Həmzə-ye Əprəddindən konkret olaraq 300, digər əmirlərdən isə təxmini 200-dən 300-ə qədər at tələb olunmasına, fikrimizcə, məhz, hamıdan əvvəl qaçmaqda ittiham olunmuş adları çəkilən əmirlər, yəqin ki, döyüşə heç girməmiş, bu halda isə qoşunları da təlafata məruz qalmamış, bu səbəbdən də onlardan müsadirə edilmiş atların sayı ilə hər qoşun üçün təxmin etdiyimiz süvari sayı tam üst-üstə düşmüşdür. Fikrimizcə, digər 50-dək əmirin qoşunu döyüşdə iştirak etdiyinə və bu səbəbdən də hər biri 0–100 arası sayda süvari itirdiyinə görə isə onlardan konkret olaraq 300 yox, sadəcə, yalnız sağ qalmış döyüşçülərinin atlarını – iki yüz-üç yüz at vermək tələb olunmuşdur.

Beləliklə, biz şəxsən belə nəticə çıxartdıq ki, məlum hadisədə Əmirzadə Əmiranşahın göndərdiyi, hər biri 300 süvaridən ibarət olan 50-dək qoşundan (– təxm. 15 min nəfərlik ordudan) üçü, toqquşma başlayan kimi meydanı tərk etmiş, vuruşmağa davam edən digərləri isə hər biri 0–100 arası sayda süvari itirdikdən sonra geri çəkilmişdir!

Təəssüf ki, bu mənbələrdə Şəki – Gürcüstan tərəfinin əsgəri sayı barədə bir şey deyilmir, yaxud heç nəyə işarə edilmir. Amma Əmir Teymurun "memuar"larına diqqət yetirdikdə, həmin tərəfin 12 mindən 40 minə qədər döyüşçü ilə vuruşduğunu ehtimal etmək mümkündür. Belə ki Əmir Teymur orada qaydalar qoymuşdur ki,

*"əmr elədim ki əgər düşmən əsgərlərinin sayı on iki min süvaridən əskik olarsa, bu vuruşda qoşuna əmirül-üməra başçılıq eləsin!*[21]*; və əmr elədim ki, əgər, düşmən qoşununun sayı on iki mindən artıq, qırx mindən əskik olarsa bəxtiyar oğullarımdan biri qoşunuma sərdar olsun!"*[22]

Bu qaydalara əsasən, onlara riayət edildiyi təqdirdə, Şəki – Gürcüstan tərəfində 12 mindən 40 min nəfərə qədər döyüşçü olmalı idi. Belə ki əgər həmin tərəfdə 12 mindən az adam olsaydı, onda, teymurilərin əks-hücumuna Əmir Teymurun nəvəsi Əmirzadə Əbubəkr deyil, hansısa əmirül-üməra başçılıq etməli idi.

İndi isə Alıncaq qalası yaxınlığında baş vermiş məlum döyüş barədə N.Şaminin yazdıqlarını nəzərdən keçirək:

*"…[Əmirzadə Əmiranşahın] necə ki daha əvvəl ağlının dönməsi qanına[, yəni xasiyyətinə] keçmiş idi, Ondan haqsız yerə bir adamın üstünə düşmək kimi adətinə uyğun olmayan bir hərəkət sadir oldu. Dost və düşmən birlikdə Ondan uzaqlaşmış oldular. Daha bu dərəcəyədək ki, Seyid Əli Şəki, baxmayaraq ki daha əvvəl tabe olur və itaət edirdi, müxalifət göstərdi və [Georginin*[23]*] gürcü ləşgəri ilə Sultan Tahir bin Sultan Əhməd ki Alıncaq qalasında mühasirədə idi, [köməyə] getdi. Ümərа ki o yerin mühasirəsi ilə məşğul idilər, birlikdə fərar etdilər –Əmirzadə Əmiranşah bahadırın yanına getdilər və həmin saat Əmirzadə Əmiranşah [öz oğlu] Əmirzadə Əbubəkrə, hazır ləşgərlərlə əks-hücum buyurub, Seyid Əli [Şəki*[24]*]nin dəfinə göndərdi; və Onlar Alıncaq qalasının ətrafında idilər, ora çatdılar. Seyid Əli də yolun bir döngəsində həmlə yetirdi və diqqət verməyərək, [Əmirzadə Əbubəkrin əvəzinə (?)] digər birinin üzərinə şığıdı və bərk cəng oldu və o mərəkədə Əmirzadə Əbubəkr bahadır bir ox atar ki, [bu ox] Seyid Əlinin dəbilqəsinin zireh ətəyi üzərinə getdi [və] zirehdən keçərək şah damarına sancıldı; və Seyid Əli necə ki dağın bir zirvəsindən, həmən bir yaraya minik heyvanının (–atının ?) belindən yıxıldı və [beləcə də] həlak oldu; və Sultan Tahir, Əmirzadə Əbubəkrin yetişməsindən qabaq qaladan çölə çıxmış idi və Seyid Əhməd namlı əlaltısını, Sərkiz namlı [erməni*[25]*] ilə Alıncaq qalasına müqərrər (– rəsmən təyin olunan) edib, elə ki Seyid Əlini o vaqiə yıxdı, [Cəlair xəzinəsini və qohumlarını götürüb*[26]*] gürcülərlə birlikdə Grcüstan tərəfə fərar etdi və ondan sonra Bağdada – atasının yanına getdi; və Əmirzadə Əbubəkr [Alıncaq qalasını mühasirə etmiş əmirləri] sabiq qayda üzrə yenə Alıncaq qalasının mühasirəsinə müqərrər buyurub və Seyid Əli Şəkinin başını bədənindən ayırtdırıb atasının [– Əmiranşahın] yanına gətirdi*[27]* və bu səbəbə bir nökəri Səmərqəndə (– əslində, Hindistana) göndərdilər."*[28]

Əmir Teymuru Hindistan yürüşü boyu müşayiət etmiş Qiyasəddin Əlinin verdiyi məlumata[29] görə onlar geri dönərkən – 1399-cu ilin mart ayının 3-də, Cənavə çayı yaxınlığında Miranşahın yolladığı nökərlərlə qarşılaşıblar. Bu adamlar, təlimatlarına uyğun olaraq, hansı ki məzmunu artıq yuxarıdakı iqtibasdan bəllidir, öz tərəflərində baş vermiş son hadisələr, o cümlədən Alıncaq qalasındakı vəziyyət barədə Əmir Teymura məlumat veriblər[30]. Onların Təbrizdən Hindistandakı Cənavə çayı yaxınlığına qədər təxm. 3 min km.lik yolu neçə günə qət etdiklərini bilsəydik, həm də Alıncaq qalası ətrafında baş vermiş məlum hadisənin, o cümlədən Şəki hökmdarı Seyid Əli Orlatın həlak olduğu vaxtı da dəqiqləşdirmiş olardıq. Lakin təəssüf ki, bu işdə məsələnin həllinə bir yox, iki nöqteyi-nəzərdən yanaşılması zərurəti meydana çıxır. Belə ki, əgər Əmir Teymurun imperiyasında xüsusi yol xidməti olsaydı, Əmirzadə Əmiranşahın yolladığı "nökərlər"in mənzil başına çatmaları üçün bir ay kifayət edərdisə, adi halda bunun üçün iki dəfə çox müddət tələb olunmaqdadı. Amma hər halda, Əlincaq hadisəsinin vaxtı ilə Seyid Əli Orlatın hakimiyyətinin başa çatması, yəni onun həlak olma tarixini şərti olaraq 1399-cu ilin yanvar ayı hesab etmək mümkündür. Yeri gəlmişkən, xatırladaq ki biz bu nəticəni yuxarılarda artıq tətbiq etmişik.

Əmir Teymur öz "memuar"larında söz gedən hadisədən hələ Hindistanda ikən xəbərdar edilməsi və bu səbəbdən də yürüşdən təcili olaraq geri dönməsi barədə barədə belə yazır:

"*Məsələn, Hindistanı zəbt elədiyim vaxtlarda, Rum qeysərinin mənim məmləkətlərimə basqın elədiyi, gürcülərin isə öz yurdlarından çıxaraq mənim qoşunumun mühasirədə saxladığı bəzi qalalara gedib, həmin qalaların içərisindəki adamlara yardım elədikləri haqqında mənə xəbər gətirdilər. Öz-özümlə genəşdim (–məsləhətləşdim): Əgər Hindistanda bir az da qalsam İran məmləkətlərinə zərər yetişəcəyi mümkün idi. Buna görə də Hindistanın paytaxtındakı işlərimi tezliklə nizama salıb, yürüş elədim. Yolda bir neçə gün Mavəraünnəhrdə dayandım. Oradan Ruma və Gürcüstana doğru yola düşdüm."*[31]

Eyni mənbənin başqa bir yerində isə belə deyir:

"*Hindistan yürüşündən zəfərlə qayıdandan sonra hələ səfərin yorğunluğu canımdan çıxmamış hər iki İraqın hakimlərindən mənə şikayət ərizəsi gəldi. Onların yazdığına görə Gürcüstan kafirləri həddini aşıb, cızıqlarından çıxıblarmış… Gürcüstan imansızlarının üsyan qaldırdıqları haqqında xəbər gəlib mənə çatan kimi məşvərət çağırdım…"*[32]

1. səh. 348a/b
2. Путешественники об Азербайджане (1961) səh. 50.
3. səh. 66
4. М. А. Сейфеддини (1981), ....
5. Bu dəfə daha münasib hesab etdiyimizə görə, birinci N. Şamidən deyil, Ş. Ə. Yəzdidən iqtibas gətiririk.
6. Əlyazmada səhvən: şah.
7. 1824-cü ildə tərtib edilmiş siyahıyaalma sənədində Şəki əyalətinin şimal-şərqində ya-şayan provoslav məzhəbli udinlərin miliyyəti «gürcü», qriqoryan məzhəblilərinki isə «erməni» kimi göstərilib.13 O cümlədən, həmin sənəddə Sultan-Nuxa kəndinin (–Qutqaşın mahalı) nə udin, nə erməni və nə də gürcü dilini bilməyən və yalnız türkcə (–oxu: azərbaycanca!) danışan qriqoryan məzhəbli sakinlərinin milliyyəti də «erməni» kimi göstərilir.13. 4 Ona və digər şeylə-rə (–hansılar ki, biz hələ bir qədər sonra bəhs edəcəyik) görə belə bir mülahizə də irəli sürmək mümkündür ki, yuxarıda «gürcü» adlananların bir qismi və ya hamısı bəlkə də gürcü yox, əs-lində, o vaxtlar Şəki ölkəsinin şimalında yaşamış provoslav məzhəbli xristianlar idi.
8. Əlyazmada yalnız: şüşə.
9. Əlyazmada səhvən yalnız: sultan.
10. Əlyazmada: dirənib.
11. Əlyazmada buraxılıb.
12. Cümlənin bu hissəsi bizim tərəfimizdən, İbn Ərəbşaha istinadən (Bax: səh.66 ( ١٢٣٩) ) əlavə edilib. Məqsədimiz hadisəni bir qədər də canlandırmaq, mətni informasiya cəhətdən daha da zənginləşdirməkdir.
13. Əlyazmada səhvən: gəldi.
14. Bu şir (Kəlilə və Dimnə-dən?), yaxud Əsəd adlı hansıa şəxs haqqında olan ərəbcə ibarədir.
15. 348b – 349b.
16. Düz mötərizə içindəki hissə Tehran nəşrindəndir. Daşkənd əlyazmasında yoxdur.
17. səh. 356a
18. ƏMİR TEYMURUN VƏSİYYƏTLƏRİ (1991), səh. 73.
19. Fikrimizcə, o, bu miqdardan az döyüşçü ilə "Hülaku xan ulusu"nu əldə saxlaya bilməzdi və həmin miqdardan artığa isə ehtiyacı yox idi.
20. Парсадан Горгиджанидзе (1990), səh. 43.
21. ƏMİR TEYMURUN VƏSİYYƏTLƏRİ (1991), səh. 100.
22. ƏMİR TEYMURUN VƏSİYYƏTLƏRİ (1991), səh. 103.
23. Mətndə: "ərgin"; Bizim tərəfimizdən redaktə edilmiş variant isə Rövzətüs-səfa mətninin müvafiq bəhsinə əsasəndir. Orada: Gorgin (–Georgi) hakim-e Gürcüstan (Bax: səh. 98 (١٢٧١)، )
24. Nəşrdə çex dilində qeyd edilib: Ajoutė par celui qui collationna le manuscrip Z.Voir p. XVIII .
25. Bax əvvəlki qeydə.
26. Bax 12-ci qeydə.
27. Necə ola bilər ki, teymurilər uzaqdan atdıqları oxla öldürdukləri Seyid Əlinin başını rahatca kəsə və hələ üstəlik, Təbrizə də apara bilərdilər?! Axı onlar özləri acınacaqlı məğlubiyyətə uğramış, qaçmağa üz qoyaraq döyüş meydanından canlarını zorla qurtarmışlar! Yəqin ki N.Şami Əmir Teymurun qəzəbindən qorxaraq teymurilərin məğlubiyyətini ört-basdır etmək üçün belə yazmağa məcbur idi və həmin səbəbdəndir ki, buradakılar Ş.Ə.Yəzdinin "Zəfərnamə"sində öz əksini tapmamışdır.
28. NIZAMUDDÍN ŠAMÍ (1956), səh. 148. Göründüyü kimi, Ş. Ə. Yəzdiyə nisbətən, N. Şaminin müvafiq bəhsi, həcm və təfsilatca bir qədər kəm olsa da bəzi təfərrüat yalnız burada var. Məsələn, Sultan Tahirin Alıncaq qalasına təyin etdiyi şəxslərdən birinin adı (və milliyyəti); Seyid Əli Orlatın dağın bir zirvəsindən, minik heyvanının belindən yıxılaraq həlak olması və başının isə kəsilərək Təbrizə aparılması; nəhayət, məlum hadisə haqda Əmir Teymura məlumat verilməsi üçün bir nökərin Səmərqəndə (– əslində Hindistana) göndərilməsi.
29. Bunlar həm də Ş.Ə.Yəzinin "Zəfərnamə"sində təkrarlanır.
30. Гийасаддин Али (1958), səh. 186; səh. 340a/b.
31. ƏMİR TEYMURUN VƏSİYYƏTLƏRİ (1991), səh.95.
32. ƏMİR TEYMURUN VƏSİYYƏTLƏRİ (1991), səh. 42.7

---

**Sadıqov Fərman Mystafa oğlu**
**12.01.1971 -15.04.1994**

## QƏHRƏMANLAR ÖLMÜRLƏR

*(Fərmanın əziz xatirəsinə)*

Görəndə tapdanır müqəddəs Vətən,
Dözməyib bunlara igid Fərman, sən,
Tapdanan vətənə, namusa görə,
Könüllü Şəkidən getdin əsgərə.

Şərəflə qorudun Fərman, Laçını,
Xilas etdin neçə uşaq, qadını,
Qozlunu düşməndən alan gün Fərman,
Sənin igidliyinə oldu xalq heyran.

Fərmanla baş tutdu Laçında görüş,
Gedirdi həmin vaxt çox ağır döyüş,
Yağırdı yağış tək göydən güllər,
Keçmişdi hücuma birdən düşmənlər.

Sayca az olsa da, Fərmangil ondan,
Qorxmurdu heç biri inan onlardan,
Görəndə üstünə gəlir tank qara
Atdı ona Fərman cəld üç qumbara.

Bir dəqiqə sonra bu tank yanırdı
Qorxub ermənilər geri qalırdı.
Oldum mən Fərmana ürəkdən heyran,
Aldım müsahibə səngərdə ondan.

Dedim: aldanmayıb şöhrətə, vara
Eşitdim gəlmisən könüllü bura?
Sən xəbər vermədən evdən heç kimə,
Mənim sözlərimdən Fərman, incimə.

Fərman cavab verdi, incimək nədir,
Sənin də mənim də dərdimiz birdir.
Mən ata-anama xəbər vermişəm,
Vətənim naminə bura gəlmişəm.

Gələndə demişəm: Ana, ağlama,
Ölsəm mən, sevinin, sən yas saxlama,
Mənim bu sözümə siz əməl edin
Ölsəm mənə, ana, halallıq verin.

Kimdir bu erməni ona qul olaq,
Olarmı vətənsiz, Yaşar yaşamaq?
Canımdan əzizdir Vətənim mənə,
Vermərəm heç zaman onu düşmənə.

Həmin bu görüşdən keçdi neçə ay,
Gəlmişdi yenə də isti gözəl may.
Erməni əsiri diri tutmaq üçün
Çıxdı kəşfiyyata, o ova bir gün.

Gəzərkən qayanı, dağı, dərəni,
Gördü keçir yoldan on beş erməni.
Salıb pulemyotu tez Fərman işə,
Atıldı təkbətək ağır döyüşə.

Biçdi erməni Fərman ot kimi,
Tutdu hərbi əsir o bir zabiti.
Tutduğu üçün yağlı ov bu cür,
Verdi ona rəis böyük təşəkkür.

Bir gün gətirdilər belə bəd xəbər,
Gedir əldən artıq gözəl Kəlbəcər.
Elə ki, bunları Fərman eşitdi,
Könüllü oraya köməyə getdi.

Çox ağır döyüşdə qəfildən Fərman
Ağır yaralandı o, sol çiynindən.
Olsa da yaralı, ancaq sonadək,
Qalıb yoldaşına etdi o kömək.

Həmi bu qorxulu, çətin döyüşdə,
Qaldı üç gün Fərman mühasirədə.
Ancaq o, qorxaraq dala qaçmadı,
Əsgər dostlarını tək buraxmadı.

Dostları onda köməyə çatdı,
Fərman hospitalda neçə ay yatdı,
Sağalıb oradan o çıxan günü,
Söylədi həkimlər ona düzünü.

Artıq əsgərliyə yaramırsan sən,
Evinə əbədi gedə bilərsən.
Çünki sən şikəstsən, unutma bunu,
Vermişsən layiqli vətənə borcunu.

Fərman cavab verdi: Hörmətli həkim,
Vardır bir xahişim, sizlərdən mənim.
Baxmayın yarama, məndə heç nəyə,
Göndərin sağlam tək məni cəbhəyə.

Nə qədər ki, olmayıb azad Vətənim,
Görünməz gözümə heç doğma evim.
Gedirəm Könüllü döyüşə yenə,
Bu işdə kömək et, qorxma sən mənə.

Həkim heyrət etdi, belə adama,
Göndərdi oradan onu Ağdama.
Azad etdi Fərman Güllü kəndini,
Qırdı bu döyüşdə çoxlu düşməni.

Yanında "boyovik" düz on beş əsgər,
Füzuli uğrunda döyüşdü Fərman.
On beş aprel tezdən sübh səhər,
Vurdu bir əsgəri bu ermənilər.

Gördü qurub Fərman, erməni tələ,
İstəyir keçirsin əsgəri ələ.
Yaralını xilas etmək naminə,
Getdi ermənin bir baş üstünə.

Edərkən o xilas əsgər dostunu,
Vurdu snayperlə erməni onu.
Etsə də əsgəri xilas o zaman,
Verdi həyatını yoldaşa qurban.

Dözməyib bu dərdə mən də ağladım,
Qələbə bizimdir, mütləq inandım.
Fərman təkin bu Azərbaycan,
Çünki yetişdirib çoxlu qəhrəman.

Köçsən də dünyadan bizdən sən qabaq,
Sənin qisasını xalqın alacaq.
Şəhid Fərman dostum, eşit, dinlə sən,
Öz Vətən borcunu yüz qat vermisən.

**Yaşar Qəlbinur**


**Həmtəsisçilər :**
1. "Şəki-İpək" şirkəti;
2. M. Salis

**Redaktor:**
A. Məmmədov.

**Çapa təqdim edildi:** 26.04.2011.
**Sifariş:** 1412
**Tiraj:** 500.
**Şəhadətnamə №** 177.



**Ünvanımız:**
Az.5500. Şəki şəhəri,
Z.Bünyadov, 33.
**E-mail:** aydin.salis@gmail.com
**Tel.:** 055 793 23 83
012 451 20 32
0177 423 15



**"İpəkçi" qəzetinin kompüterində yığılmış və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.**

**"İpəkçi" qəzeti müstəqil KİV olaraq fəaliyyət göstərir və bu qəzetdə dərc olunmuş xəbər və məqalələrin məzmununa görə "Şəki-İpək" ASC heç bir məsuliyyət daşımır!**

**■"İpəkçi" qəzeti respublikamızda nəşri davam edən yeganə çoxtirajlı (Sovet dövründə müəssisə qəzetləri belə adlanırdı), yeganə fəhlə qəzetidir!**

**■"İpəkçi" qəzeti 12.12.1990-ci il tarixdə, özünü "Şəki İpəkçilərinin Açıq Tribunası" elan edərək, hələ Sovet dövründə, rəsmən, müstəqil Azərbaycan mətbuatın əsasını qoymuşdur!**

**■Azərbaycan Sovet mətbuatında ənənəvi "Bütün ölkələrin proletarları birləşin!" şüarından və Kommunist partiyasının təsisçiliyindən də ilk dəfə - 12.12.1990-ci il tarixdə, "İpəkçi" qəzeti mtina etmişdir!**

# Şəkinin səsi

**İctimai-siyasi qəzet**

№ 1 (437) 26 Aprel 2011-ci il Qiymәti 20 qәp.


*Redaksiyadan*

## "İPƏKÇİ" VƏ "ŞƏKNİN SƏSİ" QƏZETLƏRİNİN NƏŞRİ DAYANIR!

Hörmətli oxucularımız. Bu Azərbaycanda nəşri indiyə qədər davam etmiş sonuncu fəhlə qəzetinin –"İpəkçi"nin və ilk müstəqil region qəzetinin – "Şəkinin səsinin" birgə vida nömrəsidir! Necə ki əvvəlki saylarımızda belə bir buraxılış üzərində düşündüyümüzü bildirmişdik və göstərmişdik ki, qəzetlərimizin üzləşdiyi ağır maddi durum, dövlət tərəfindən qəzetlərimizə heç bir yardım göstərilməməsi, əvəzində dövlət tərəfindən Sovet hakimiyyətindən qalan redaksiya ofislərimizin və inventarlarımızın əlimizdən alınması və geri qaytarılmaması bu qəzetlərin nəşrinin davam etdirilməsinə imkan vermir. Bu barədə həm də əlavə olaraq rəsmi məktubla Şəki İcra Hakimiyyəti başçısına, Azərbaycan Respublikası Prezidentinə, Prezident Administrasiyasının rəhbərinə müraciət etmişdik, lakin necə ki, siz oxucuların şikayətlərinə heç kim baxmır, ən yaxşı halda, olsa-olsa, sizi qane etməyən izahat verilir, eləcə də bizim müraciətlərimiz də nəticəsiz qalmışdır.

Biz Azərbaycan dövlətçiliyini, Prezidenti dəstəkləyirdik, korrupsiyaya və bu korrupsiyanı cəzasız qoyan cinayətkar məhkəmə-hüquq sistemini ifşa etməyə çalışırdıq, camaatın ürəyindəki sözləri qəzet səhifələrimizdə dərc edirdik, bu dövrdə heç kimin saymadığı zəhmətkeş sinfin hüquqlarını müdafiə edirdik, fəhlələrin şəkillərini məmurların şəkillərindən böyük ölçüdə qəzetimizə yerləşdirməklə onlara sevinc bəxş etməyə çalışırdıq. Vətən tarixi də bizim qəzetlərin daima əsas mövzusu olmuşdur, Vətən tarixinin öyrənilməsi cəhətdən böyük əhəmiyyət kəsb edən neçə-neçə elmi-tarixi məqalə, rus və fars dilindən edilmiş tərcümələr ilk dəfə bizim qəzetlərdə dərc edilmişdir.

Bizim qəzetlər Şəki şəhərindəki qəzet köşklərində satışa çıxarılan yeganə yerli qəzet və bu şəhərdə ən çox yayılan və oxunan qəzet idi..

Lakin bu qəzetlərdən bizə nəinki 1 qəpik gəlir gəlməyib, hətta onların bir sayının nəşr olunması üçün tələb olunan minimum məbləğ də bizim aylıq əmək haqqımızdan 50 % çox olub. Buna görə bəyan edirik ki, bu qəzetlərin nəşrinin davam etdirilməsi artıq bizim maddi imkanımız xaricindədir. Yəni maliyyə dəstəyinin olaması səbəbi ilə "İpəkçi" və "Şəkinin səsi" qəzetlərinin nəşrini davam etdirə bilməyəcəyik.

**Aydın Məmmədov**,
*"İpəkçi" və "Şəkinin səsi" qəzetinin baş redaktoru,*
*Açıq kataloq Layihəsinin (Open Directory Project) Azərbaycan, özbək, türkmən, uyğur, qırğz, başqırd, tatar dillərindəki saytlar üçün bütün kateqoriyaların və ingiliscə "Azerbaijan", kateqoriyasının redaktoru*

**MƏRHUM HIKMƏT SƏLİMOVUN İNTİHARI İLƏ BAĞLI HƏBS EDİLMİŞ MƏMURLARIN AZADLIĞA BURAXILMASI KİV-DƏ**

# Məhkəmədən sonra jurnalist təhqiqatları

*Bu il fevralın 3-də Şəkidə baş vermiş intihar hadisəsi ilə bağlı həbs olunmuş məmurların azadlığa buraxılması barədə "İpəkçi" qəzetinin "Ipekchi.info" saytında başlanan jurnalist təhqiqatı, daha sonra "Azadlıq" qəzeti, "Azadlıq" radiosu və "Media forum" saytı tərəfindən də davam etdirilmiş, bu məsələ bir qədər də ətraflı öyrənilmiş və obyektiv yekun nəticə çıxarılması üçün informasiya bazası yaranmışdır. Onu da qeyd edək ki, aparıcı qəzetlərdən "Təzadlar" və "Gündəm" qəzeti "Ipekchi.info"nun, "Bizim yol" və "Bakı xəbər" qəzeti isə "Azadlıq" radiosunun məqaləsini təkrarən özləri də dərc etməklə vətəndaş hüquqlarının pozulması, məmur özbaşınalıqları və qondarma məhkəmə-hüquq sisteminə qarşı mübarizəni dəstəkləmiş olmuşlar. Lakin maraqlıdır ki, "Müsavat" qəzeti bu barədə heç bir yazı dərc etməmişdir... Onu da qeyd edək ki, "Mediaforum" saytı da sonda "aprelin 14-də Şəki Rayon Məhkəməsinin çıxardığı hökmün ədalətli olmadığı" qənaətinə gəlmiş və bəzi məqamlarda onların müsahiblərinə sualları – məsələn, "Hikmət Səlimovun ölümündən sonra Cinayət Məcəlləsinin 309.1 və 125-ci maddələr üzrə qaldırılmış işlər eyni icraata verilməli idimi?", – sualı, sanki Şəki Rayon Məhkəməsinin hakiminə, yaxud Şəki Rayon Prokurorluğunun əməkdaşına verilirmiş kimi cavabsız qalmışdır; başqa sözlə, qarşı tərəf əvvəlcə bu sualdan yayınmış, sonra isə izah etməyə çalışmışdır ki, 125-ci maddə boş bir şeydir; bizim fikrimizcə isə bu Şəki Rayon Məhkəməsinin və Şəki Rayon Prokurorluğunun "İpəkçi" qəzetinə və "Azadlıq" radiosuna cavabı kimi görünməkdədir. Lakin biz belə hesab edirik ki, 125-ci maddə heç də boş bir şey deyil, əslində bu bəziləri üçün "çörək ağacıdır" və həmin maddənin tətbiq olunmaması, yaxud bu maddə ilə qaldırılmış cinayət işinin xətm olunması, təqsirləndirilənlər üçün 30-40 min manata başa gələ bilir, necə ki "Mediaforum" saytında da təqsirkarların azadlığa çıxmaq üçün bu qədər vəsait sərf etməsi barədə şayiələrdən söhbət gedir və həm də qeyd olunur ki, həmin puldan zərərçəkmişin ailəsinə 1 qəpik belə çatmayıb. Biz heç də Y.Aburəhmanov və E.Qəhrəmanovun uzun müddət həbsdə qalmalarının tərəfdarı deyilik. Bizim "dava"mız Şəki Rayon Prokurorluğu və Şəki Rayon Məhkəməsilədir. Belə ki hesab edirik ki, Y.Aburəhmanov və E.Qəhrəmanovun qısa müddətdən sonra azadlığa çıxmaları, əslində yalnız zərərçəkmişin ailəsinə onların qanun çərçivəsində ödədikləri kompensasiyadan sonra mümkün ola bilərdi. Lakin ortada heç bir kompensasiyanın söhbət getmədiyi və mərhumun həyat yoldaşının şikayətini davam etdirdiyi, özü də bu barədə KİV-də açıq-aşkar çıxış etdiyi halda, müəmmalı şəraitdə (cəmi 2 versiya mümkündür: 1. Rüşvət; 2. Sifariş ) saxtakarıq, hədə-qorxu və fırıldaq yolu ilə bu işi görmək, sonra isə nəticəni KİV-dən gizlətmək heç də kişilik hesab edilə bilməz!!!*

## KORRUPSİYANIN TƏNTƏNƏSİ,
### yaxud Hikmət Səlimovun intihar etməsinin səbəbkarları azadlıqda!!!

Məlum olduğu kimi, bu il fevralın 3-də Şəkidə mağazasının məhkəmə hökmü olmadan sökülməsinə etiraz edən Hikmət Səlimov özünü Kiş çayının üzərindəki körpüdən ataraq intihar etmişdir. Bu hadisəyə görə isə Şəki Şəhər İcra hakimiyyəti başçısının sabiq müavini Eldəniz Qəhrəmanov və icra hakimiyyətinin sabiq şöbə müdiri, şəhərin sabiq baş memarı Yusif Abdurahmanov həbs edilmişdilər. O vaxt Respublika Prokurorluğu mətbuat xidmətinin rəhbəri Eldar Sultanovun "Media forum" saytına açıqlamışdı ki, fevralın 3-də hadisə baş verən kimi fakt üzrə Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi açılıb". Lakin sonda məlum oldu ki E.Qəhrəmanov və Y.Abdurahmanov barədə yalnız 309.1-ci (vəzifə səlahiyyətlərini aşma) maddəsi ilə qaldırılan cinayət işi baxılmaq üçün Şəki Rayon Məhkəməsinə göndərilmişdir.

Fafaciə baş verərkən və E.Qəhrəmanov ilə Y.Abdurahmanov barəsində 3 aylıq həbs qətimkan tədbiri seçilərkən, Azərbaycanın bütün aparıcı KİV həmin mövzunu geniş şərh etməyə, məmurların həbsini korrupsiyaya qarşı əməli mübarizənin bariz nümunəsi və nəticəsi kimi təqdim etməyə şalışmışlar. Yalnız "Azadlıq" radiosu bunu "şou" adlandırdı və bir də biz qəzetimizin İpekchi.info saytında yazdıq ki, "onların, xüsusilə, E.Qəhrəmanovun, "möhkəm" arxası olduğuna görə, inanmaq mümkün deyil ki, həbs edilsinlər. Azərbaycan reallığında bu kateqoriyalı adamlar 1 yox, 11 adamın da ölümünə bais olsalar belə, yenə də həbsdən canlarını qurtara bilirlər!". Hadisələrin sonrakı gedişatı isə bizim bu qənaətə gəlməkdə tamamilə haqlı olduğumuzu üzə çıxartdı. Bəli, aprelin 14-də E.Qəhrəmanov ilə Y.Abdurahmanov şərti cəza ilə azadlığa buraxılıblar! Maraqlıdır ki, onların azad edilməsindən 1 həftə ötüb, KİV-də bu barədə 1 xəbər belə getməyib?! Bəli, 1 həftə sonra ilk xəbəri biz veririk. Şəki Rayon Məhkəməsindən isə bizə bildirdilər ki, intihar hadisəsi ilə bağlı onlara Şəki Rayon Prokurorluğundan heç bir iş göndərilməyib, E.Qəhrəmanov ilə Y.Abdurahmanov barədə daha əvvəl seçilmiş 3 aylıq həbs qətimkan tədbiri isə intiharla bağlı deyildi.

Mərhum H.Səlimovun həyat yoldaşı Nailə Səlimova isə bizə ərinin intihar etməsinin səbəbkarlarının azadlığa buraxılmasını korrupsiyanın təntənəsi hesab etdiyini bildirdi və əlavə etdi ki, "camaat elə bilir ki onların azad edilməsi üçün mənə pul veriblər, guya pul veriblər sakit durum, şikayətçi olmayım, hamısı yalandır! Mənə heç nə verməyiblər və mən də binamus deyiləm ki onlardan pul alım, mən ərimin qanını pula satmaram!!! Amma hara şikayət edim? Kimdir mənim şikayətimə baxan? O, korrupsiyadır, nədir, o Azərbaycanda yoxdur (yəni, Azərbaycanda korrupsiyadan başqa heç nə yoxdur, -RS), ölkənin yiyəsi yoxdur, gücüm yalnız özümə çatır, haqsızlıqlardan bezmişəm, özüm də intihar edəcəyəm!!!

***www.ipekchi.info***
*20 aprel 2011-ci il*

***

## İntihar edən sahibkarın qanı batırıldı
### Hikmət Səlimovun ölümünə görə həbs edilən məmurlar azadlığa buraxıldı

Şəkidə sahibkar Hikmət Səlimovun intiharı ilə bağlı həbs edilən icra başçısının müavini Eldəniz Qəhrəmanov və baş memar Yusif Abdurrahmanov azadlığa buraxılıb. Bu barədə Şəkidə nəşr edilən "Ipək" qəzeti məlumat yayıb. Məlumatda deyilir ki, Eldəniz Qəhrəmanovla Yusif Abdurrahmanov aprelin 14-də şərti cəza ilə azadlığa buraxılıb. Maraqlıdır ki, bu barədə ictimaiyyətə heç bir məlumat verilməyib. Həmçinin sabiq müavinlə, sabiq baş memarın məhkəməsinin nə zaman keçirilməsi də bəlli deyil. Şəki Rayon Məhkəməsindən "Ipəkçi"yə bildirilib ki, Şəki Rayon Prokurorluğundan onlara bu məsələ ilə bağlı heç bir cinayət işi göndərilməyib.

Hikmət Səlimovun xanımı Nailə Səlimova isə "Azadlıq"a açıqlamasında bu olayı ərinin qanının batırılması kimi dəyərləndirib: "Ərimin qanını batırdılar. Dedilər, mağaza dağıdılıb bunun cəriməsi 40 manatdır, vəssalam. Sonra da buraxdılar. Məni danışmağa qoymadılar. Dedilər, burada sənin ərinin ölümü ilə bağlı işə baxmırıq".

Nailə Səlimova deyib ki, onu ağrıdan guya şikayət etməmək üçün pul alması barədə Şəkidə gəzən dedi-qodulardır: "Mənə şər atırlar, deyirlər guya şikayət etməmək üçün pul almışam. Pul alanın da, verənin də, onu deyənin də balası ölsün. Mənim ailəmin sahibini öldürüblər, hələ bir mənə şər də atırlar. Qoy bütün Şəki camaatı bilsin ki, mən heç kimdən pul almamışam, almaram da. Mən ərimin qanını batırmaram. Mən sizin qəzetiniz vasitəsilə prezident Ilham Əliyevə müraciət edirəm: Baxın Şəkidə məmurlar hansı əməlləri törədirlər, mənim ərimin qanını batırırlar, balalarımı yetim qoyublar. Deyirlər rüşvətxorluq yoxdur, əgər belədirsə, onda bu adamlar necə azadlığa çıxdı. Artıq bezmişəm".

***www.azadliq.info***
*21 aprel 2011-ci il*

***

## Şəkidə icra başçısının müavininə və baş memara şərti cəza

### "TƏKCƏ DÜKANI DAĞITMAQ İŞİNƏ BAXDILAR"

"Mənim yoldaşımın heç ölüm işinə baxmadılar. Təkcə dükanı dağıtmaq işinə baxdılar. Əvvəldən yazmışdılar ki, 250 manatlıq ziyan vurulub, onlar buraxılan gün 40 manatlıq ziyan yazdılar, guya ora 40 manatlıq ziyan vurulub".

Danışan bu ilin fevral ayında intihar etmiş Şəki sakini, sahibkar Hikmət Səlimovun həyat yoldaşı Nailə Səlimovadır. Hikmət Səlimov fevralın 3-də özünü Kiş çayının üzərindəki körpüdən ataraq intihar edib. Buna səbəb də rəsmi qurumların göstərişiylə mağazasının bir hissəsinin uçurulması olub.

Hikmət Səlimovun intiharından sonra Şəki rayon İcra Hakimiyyətinin iki vəzifəli əməkdaşı həbs olunmuşdu. Onlardan biri icra başçısının şəhər təsərrüfatı üzrə müavini Eldəniz Qəhrəmanov, ikincisi isə tikinti və memarlıq şöbəsinin müdiri - baş memar Yusif Abdurahmanov idi. Hadisədən 3 gün sonra Şəki Rayon Polis İdarəsindən AzadlıqRadiosuna bildirmişdilər ki, icra hakimiyyəti rəsmiləri vəzifə səlahiyyətlərini aşmaqda və intihara çatdırmaqda ittiham olunurlar. Amma bundan bir gün sonra Baş Prokurorluğun yaydığı məlumatda deyilirdi ki, həmin şəxslərlə bağlı Cinayət Məcəlləsinin təkcə vəzifə səlahiyyətlərini aşma maddəsi ilə cinayət işi başlanıb. İstintaqı Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsi aparır.

### 1 AYA İSTİNTAQI, 2 HƏFTƏYƏ MƏHKƏMƏSİ BİTƏN CİNAYƏT

İstintaq vur-tut bir ay davam edib. Martın ortalarında yekunlaşıb və iş materialları məhkəmə baxışına verilib. İttiham aktında göstərilirdi ki, fevralın 3-də saat 10-da Şəki Şəhər İcra Hakimiyyəti başçısının müavini Eldəniz Qəhrəmanov və şəhərin baş memarı Yusif Abdurahmanov xidməti səlahiyyətlərindən kənara çıxan hərəkətlər ediblər. Şəhərin Fuad Abdurahmanov küçəsində inşa edilmiş mağazaya gələrək məhkəmə qərarı olmadan mağazanın və mağaza qarşısında tikilmiş açıq talvarın sökülməsi üçün qanunsuz göstərişlər veriblər. Göstəriş əsasında həmin tikililərin bir hissəsi traktor-ekskavatorla uçurulub-dağıdılıb. Bununla da fiziki şəxsin konstitusiya ilə nəzərdə tutulan hüquq və azadlıqları pozulub.

Şəki rayon Məhkəməsində hakim Kamran Süleymanovun sədrliyi ilə başlanan məhkəmə prosesi heç iki həftə davam etməyib. Üst-üstə 4 məhkəmə iclası keçirilib. Məhkəmədən AzadlıqRadiosuna verilən məlumata görə, Eldəniz Qəhrəmanova 1 il 6 ay, Yusif Abdurahmanova isə 11 ay şərti cəza verilib, hər ikisi məhkəmə zalından azadlığa buraxılıb.

### "EVƏ HƏDƏLİ ZƏNGLƏR GƏLİRDİ Kİ..."

Ancaq sahibkarın həyat yoldaşı Nailə Səlimova məhkəmənin hökmü ilə razı deyil. Deyir ki, ərini məmurlar özünü öldürmə həddinə çatdırsalar da onlara bu maddə verilməyib. Nailə Səlimova hesab edir ki, ərinin ölümünə bais olan məmurlar yalnız dükanı sökdürməkdə təqsirləndirilməklə yüngül cəza alıblar. Nailə Səlimovanın sözlərinə görə, məhkəmə prosesində yalnız bir dəfə iştirak edə bilib. Məhkəmə iclasını izləyə bilməməsinin səbəbi isə deməsinə görə, yaşadığı mənzilə gələn hədəli zənglər olub. Nailə Səlimova: "Bizi qorxutdular, bizi məhkəməyə getməyə qoymadılar. Məhkəmənin birinci günü getdim məhkəməyə, mənim evimə zənglər vuruldu. Uşaqlarıma dedilər ananız orda artıq- əskik nə isə desə, dükanınızı sökəcəyik".

### "O KİŞİNİ ƏVVƏLDƏN İNCİDİRDİLƏR"

Mərhumun yaxın qohumu Tərlan Əhmədov deyir ki, Hikmət Səlimov 2003-cü ildən təzyiqlərə məruz qalıb. Keçmiş icra başçısının vaxtında Şəki bazarındakı mağazasını bağlayıblar. Sahibkar da bazardan kənarda tikinti materialları dükanı açıb. Bu dəfə də rayonun yeni icra başçısı dükanın sökülməsi haqda göstəriş verib. Məmurların ərazidə göstərişi yerinə yetirməsi isə sahibkarın ölümünə səbəb olub:

"Bu kişini elə əvvəldən incidirdilər. Çölə mal tökməyə qoymurdular, deyirdilər ki, «qumu dükanın içinə tök». O da deyirdi «dükanın içinə qumu necə töküm, mən qum satıram, kərpic satıram, bunlar da çöldə olan şeylərdi». Bu adam dəli deyil ki, gedib özünü atsın, bu adamı bu həddə çatdırıblar ki, gedib özünü atıb".

Həbsdən çıxmış keçmiş icra başçısı müavini Eldəniz Qəhrəmanov hadisələrlə bağlı geniş danışmaq istəmədi. O, AzadlıqRadiosuna təkcə bunu deməklə kifayətləndi ki: "Mən nə deyə bilərəm, dövlətin qərarıdır, mən də nə qərardırsa, onu qəbul edirəm".

### "BU CƏZA GÖZDƏN PƏRDƏ ASMAQDIR"

Respublika Baş Prokurorluğunun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov AzadlıqRadiosuna bildirib ki, Hikmət Səlimovun ölüm faktı ilə bağlı Cinayət Məcəlləsinin özünü öldürmə həddinə çatdırma maddəsi ilə Şəki rayon Prokurorluğunda başlanmış istintaq hələ də davam edir.

Hüquqşünas Namizəd Səfərov deyir ki, özünü öldürmə dərəcəsinə çatdırma məmurlara verilmiş cinayət işi ilə bağlı olduğuna görə, ayrıca icraata verilə bilməzdi. Namizəd Səfərovun fikrincə: «Gözdən pərdə asmaq üçün yüngül maddə veriblər, özünü öldürmə həddinə çatdırma vəzifə səlahiyyətlərini aşma cinayətindən daha ağır maddə olduğuna görə istəməyiblər ki, onlara daha ağır cəza versinlər. Əksər hallarda da sonradan bu cinayət işi xətm olunur, yəni gedib məhkəməyə çatmır».

Hüquqşünas məmurların həbsinin son vaxtlar ölkədə korrupsiyaya qarşı mübarizə aparılması ilə bağlı görüntü olduğunu deyir. "Vəzifəli şəxslərə qarşı istintaq təqibinə başladıq deyə raport verirlər, sonradan isə o ağır maddə ayrılıb bir kənara qoyulur, bunlar haqqında məhkəmə azadlıqdan məhrum etməklə əlaqəli olmayan cəza verir".

Xatırladaq ki, Şəkidə sahibkar Hikmət Səlimovun intiharından bir həftə əvvəl - yanvarın 27-də prezidentin tapşırığı ilə Korrupsiyaya Qarşı Mübarizə Komissiyasının toplantısı keçirilmişdi. Həmin toplantıda sahibkarların hüquqlarının pozulduğu, onlardan rüşvət istəndiyi bildirilib.

**Esmira Cavadova**
***www.azadliq.org*** *21 aprel 2011-ci il*

***

## ŞƏKİDƏ MƏMURLARA HÖKM OXUNDU, HAQQ YERİNİ TAPDIMI?

Şəki Şəhər İcra Hakimiyyəti başçısının keçmiş müavini Eldəniz Qəhrəmanovla icra hakimiyyətinin keçmiş şöbə müdiri, şəhərin sabiq baş memarı Yusif Abdurahmanov barəsində məhkəmə hökmü aprelin 14-də çıxarılıb. Şəki Rayon Məhkəməsinin hakimi Kamran Süleymanovun köməkçisinin "Media forum" saytına verdiyi məlumata görə, hər iki şəxs aylıq qazancının 20 faizi dövlət nəfinə tutulmaqla müvafiq olaraq 1 il 6 ay və 2 il müddətinə islah işinə məhkum edilib. Zərəçəkənlə bağlı hər hansı qərar verilməyib. Hakim köməkçisinn verdiyi məlumata görə, zərərçəkən Elfanə Səlimova hakimə barışıq ərizəsi təqdim edib: "Ərizə notarial qaydada təsdiq olunmuşdu".

Eldəniz Qəhrəmanov və Yusif Abdurahmanov Cinayət Məcəlləsinin 309.1-ci (vəzifə səlahiyyətlərini aşma) maddəsi ilə məhkum olunublar. Onlar fevralın 3-də Şəkidə baş vermiş intihar hadisəsindən sonra həbs ediliblər. Həmin gün Şəki şəhərindəki mağazasının məhkəmə hökmü olmadan sökülməsinə etiraz edən Hikmət Səlimov Kiş çayının üzərindəki körpüdən özünü ataraq intihar edib.

Fevralın 7-də Respublika Prokurorluğu rəsmi məlumat yayaraq bunları bildirib: "Şəki Şəhər İcra Hakimiyyəti başçısının 29 mart 2003-cü il sərəncamı ilə şəhər sakini Elfanə Səlimovaya ayrılan 30 kvadratmetr ərazidə onun atası Hikmət Səlimov icazəsiz mağaza və talvar inşa etdirib və orada qanunsuz küçə ticarəti aparıb. Həmin ərazidə qanunsuz ticarətlə məşğul olması ilə əlaqədar Şəki şəhər bələdiyyəsi Hikmət Səlimova 13 dekabr 2010-cu ildə rəsmi xəbərdarlıq edib, o, inzibati xəta törətməkdə təqsirli bilinərək 20 manat cərimələnib.

3 fevral 2011-ci ildə saat 10-da Şəki Şəhər İcra Hakimiyyəti başçısının şəhər təsərrüfatı üzrə müavini Eldəniz Qəhrəmanov, icra hakimiyyətinin tikinti və memarlıq şöbəsinin müdiri, şəhərin baş memarı Yusif Abdurahmanov xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar kənara çıxan hərəkətlər ediblər, Elfanə Səlimovaya ayrılmış ərazidə, şəhərin Fuad Abdurahmanov küçəsində inşa edilmiş mağazaya gəliblər, məhkəmə qərarı olmadan mağazanın və mağaza qarşısında tikilmiş açıq talvarın sökülməsi üçün qanunsuz göstərişlər veriblər, həmin tikililərin bir hissəsinin traktor-ekskavatorla uçurulub-dağıdılmasına nail olublar, bununla da fiziki şəxsin konstitusiya ilə nəzərdə tutulan hüquq və azadlıqlarını pozublar".

İntihar edən sahibkarın həyat yoldaşı Nailə Səlimova aprelin 22-də "Media forum" saytına açıqlamasında bildirib ki, onlar barışıq haqqında kağızı təzyiq altında veriblər: "Məhkəmə prosesi başlayanda mən orada ərimin qanının batırılmamasını, onun ölümünə səbəb olan adamların cəzalandırılmasını tələb etdim. Hakim mənə dedi ki, bu gün o işə baxılmır. Mən isə bu işə də baxılmasını tələb elədim. Hakim mənə dedi ki, burada az səs-küy sal, yoxsa səni bayıra çıxararam. Həmin gün evə gələndə isə o biri qızım mənə dedi ki, bu gün evə zəng edib bizi hədələdilər. Bizi hədələyən adamlar deyib ki, anana de çox çığır-bağır salmasınlar, onsuz da o adamlar həbs olunmayacaqlar, özünü öldürməsin, çox da danışmasın, yoxsa yenə zərərli siz çıxarsınız. Bu hədədən sonra heç bilmədik nə edək. Nə edə bilərdim? Qadın başına qalmışıq. Hətta bizdən narahat olduğuna görə ailə həyatı qurmuş qızım da öz evinə gedə bilmir, bizimlə qalır. Qorxuram ki, bizim üzümüzdən onun ailəsi də ziyan çəkər".

Nailə Səlimova bütün olanlardan çox əziyyət çəkdiyini, əgər hədə-qorxular davam edərsə, təzyiqlər olarsa, həyat yoldaşı kimi addım atacağını deyib: "Mən də gedib körpünün üstündən özümü aşağı atacam. Əgər ədalət budursa, qoy onlar qalib gəlsinlər, yoldaşımın da qanı batsın, mənim də... Mən heç adi hüquqlarımı belə bilmirəm. Kimlərdənsə mənə yardım olacağına da inanmıram. Burada deyirlər ki, guya məhkəmədən sonra mən onlardan 30-40 min manat pul almışam. Amma bu yalandır, vallah-billah. Onlardan bir qəpik də almamışam. Bu qədər yalan, şər olar? Biz halal çörək yeyib yaşamışıq, bundan sonra da belə olacaq. Mən heç vaxt yoldaşımın qanı batsın deyə pul götürmərəm. O ərizəni də təzyiq altında verdik. Qızlarımın, nəvələrimin həyatını qorumaq üçün o ərizəni verdim. Bir də bizi məhkəmədə aldatdılar ki, bu iş intiharla bağlı deyil. Mən mətbuat vasitəsilə dövlət başçısına, baş prokuror Zakir Qaralava müraciət edirəm ki, bizə yardım eləsinlər".

Nailə Səlimova ötən müddət ərzində Şəkidə fəaliyyət gösətrən təşkilatlardan birinin onlarla maraqlandığını deyib: "Adlarını dəqiq deyə bilmərəm, amma bizə telefon nömrəsi qoyub gediblər. Onlara müraciət etmək niyyətindəyəm".

"Media forum" saytının müəyyənləşdirdiyinə görə, Səlimovlar ailəsiylə maraqlanan İnsan Hüquqları üzrə Maarifləndirmə Birliyi olub. Birliyin sədri, hüquq müdafiəçisi İradə Cavadova sayta açıqlamasında deyib ki, ATƏT-in maliyyələşdirdiyi layihə çərçivəsində sahibkarlara hüquqi yardımları təşkil edirlər: "Bizim Şəkidə ofisimiz var. Layihədən kənar olaraq bizim həmin ofisdəki hüquqşünasımız Səlimovlar ailəsində olub və onlara yardım göstərməyə hazır olduqlarını bildirib. Bunun üçün onların bizə rəsmi müraciət etməsi lazımdır. Bu olarsa, onların sahibkarlıqla bağlı bir sıra problemlərinə, eləcə də Nailə Səlimova xəstə olduğundan pensiya almaq məsələlərinə yardım edə bilərik".

Fevralın 3-də Hikmət Səlimov intihar edəndən sonra Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi açılıb. Respublika Prokurorluğunun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov "Media forum" saytına açıqlamasında bildrmişdi ki, iş üzrə müvafiq ekspertizalar, o cümlədən tibbi, bioloji, psixiatrik ekspertizalar təyin olunub: "Hazırda istintaq tədbirləri davam etdirilir".

Lakin hüquqşünas Müzəffər Baxışov "Media forum"a bildirib ki, bu cinayət işi ilə bağlı heç vaxt saxlanılan, yaxud cəzalandırılan olmayacaq: "Hüquqşünaslar arasında Cinayət Məcəlləsinin 125-ci maddəsinə "ehtiyatda olan maddə" deyirlər. İndiyə qədər bu maddə ilə kiminsə tutulduğunu, kiminsə cəzalandığını demək mümkün deyil. Hətta bu faktla bağlı uzun illər müşahidə aparsanız belə, kiminsə cəzalanacağının, ittiham olunacağının şahidi olmayacaqsınız. Bunu tam əminliklə deyirəm".

Hüquqşünasın sözlərinə görə, bu maddənin strukturu elədir ki, onu bu və ya digər şəxsi cinayət məsuliyyətinə cəlb etmək məqsədilə tətbiq etmək çətindir: "Belə hesab edirəm ki, həmin vəzifəli şəxslər barəsində 309.1 maddəsi ilə düzgün olaraq cinayət işi başlanıb".

Hikmət Səlimovun ölümündən sonra Cinayət Məcəlləsinin 309.1 və 125-ci maddələr üzrə qaldırılmış işlər eyni icraata verilməli idimi? Hüquqşünas qeyd edib ki, buna heç də ehtiyac yoxdur: "Çünki bu vəzifəli şəxslər həqiqətən də səahiyyətlərini aşmışdılar. Mülki Məcəlləsinin 180.4-cü maddəsinin tələblərinə görə, özbaşına tikili yalnız müvafiq icra hakimiyyətinin məhkəməyə müraciətindən və məhkəmənin qərarından sonra sökülə bilər. Lakin bu vəzifəli şəxslər məhkəməyə müraciət etmədən, özbaşına həmin tikilini söküblər".

Müzəffər Baxışov onu da vurğulayıb ki, sözügedən şəxslərin saxlanması ilin əvvəlində ölkədə korrupsiyaya, rüşvətxorluğa, məmur özbaşınalığına qarşı başlanmış kampaniyanın görüntülərindən biri idi: "Belə işlərə Azərbaycanın bütün rayonlarında rast gələ bilərsiniz. Hətta onu xatırlamaq yerinə düşərdi ki, Hacıbala Abutatalıbov Bakı Şəhər İcra Hakimiyyətinin başçısı təyin olunandan sonra paytaxtda 25 min obyekti heç bir məhkəmə qətnaməsi olmadan sökdürdü. Sadəcə, şəkili məmurlar qurbanlıq oldular.

Misal var. Bir uşaq televizora baxırmış. Orada birisi rüşvətxorluğa görə həbs olunubmuş. Atasından soruşur ki, onu niyə həbs ediblər. Ata da cavab verir ki, bala, o da biz gördüyümüz işi edib, sadəcə onunkunun səsi çıxıb. Fikrimi ora gətirmək istəyirəm ki, hər gün ayrı-ayrı rayonlarda məmurlar bu hərəkəti edirlər, sadəcə, Şəkidən bu olayın səsi çıxdı".

Hüquqşünas aprelin 14-də Şəki Rayon Məhkəməsinin çıxardığı hökmün ədalətli olmadığını deyib: "Yəqin ki, hakim Cinayət Məcəlləsinin 62-ci maddəsini tətbiq etməklə onlara ən yüngül cəzanı tətbiq edib. Onlar ən ağır cəza olaraq əmlakı müsadirə olunmaqla üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırıla bilərdilər. Şəki Rayon Məhkəməsinin hökmü onların hərəkətlərinə adekvat hökm deyil. Hikmət Səlimovun ölümündən sonra Azərbaycanda baş verən prosesləri izləməklə tək bir qənaətə gəlmək olar ki, bir adamın ölümü bu cür ört-basdır edildi, sadəcə cəzasızlıq halı baş verdi".

***www.mediaforum.az***
*22 aprel 2011-ci il*

### Şəki Televiziyası - Kanal S
### Verilişlərin proqramı
### 15 marrt - 20 mart



**26 APREL**

08:58 Günün proqramı
09:00 Kanal S Xəbər
09:10 Gün gəlir
11:00 Sağlam həyat (təkrar)
12:00 Hit-mix
13:00 B/F (təkrar)
15:00 Kanal S Xəbər
15:15 T/S"Eliza haradadır?"
16:00 Sənədli film
17:00 Evin içi (təkrar)
18:30 Hit-mix+
19:30 Kanal S Xəbər
20:00 Kim haqlıdır?
21:00 T/S"Eliza haradadır?"
21:50 Derbi
23:00 T/S"İkinci şans"
23:30 Kanal S Xəbər
23:45 B/F"Kapitan Flintin xəzinəsi-2"
01:30 Klip
03:00 Efirin sonu

**27 APREL**

08:58 Günün proqramı
09:00 Kanal S Xəbər
09:10 Gün gəlir
11:00 T/S "Dağ siçanının macəraları"
11:30 T/S"İkinci şans"
12:00 Hit-mix
13:00 B/F (təkrar)
15:00 Kanal S Xəbər
15:15 T/S"Eliza haradadır?"
16:00 Derbi (təkrar)
17:00 Avand olsun
17:30 Səhhət
18:15 Cizgi filmi
18:30 Hit-mix+
19:30 Kanal S Xəbər
20:00 Kim haqlıdır?
21:00 T/S"Eliza haradadır?"
22:00 Sənədli film
23:00 T/S"İkinci şans"
23:30 Kanal S Xəbər
23:45 B/F"Ridikin salnamələri"
01:45 Klip
03:00 Efirin sonu

**28 APREL**

08:58 Günün proqramı
09:00 Kanal S Xəbər
09:10 Gün gəlir
11:00 T/S "Dağ siçanının macəraları"
11:30 T/S"İkinci şans"
12:00 Hit-mix
13:00 B/F (təkrar)
15:00 Kanal S Xəbər
15:15 T/S"Eliza haradadır?"
16:00 Sağlam həyat
17:00 Sənədli film
18:00 Savaş bitməyib
18:30 Hit-mix+
19:30 Kanal S Xəbər
20:00 Kim haqlıdır?
21:00 T/S"Eliza haradadır?"
22:00 N M TV
22:30 Unudulmayan ifalar
23:00 Kriminal
23:30 Kanal S Xəbər
23:45 B/F "Ölüm möhürü"
01:30 Klip
03:00 Efirin sonu

**29 APREL**

08:58 Günün proqramı
09:00 Kanal S Xəbər
09:10 Gün gəlir
11:00 Sağlam həyat (təkrar)
12:00 Hit-mix
13:00 B/F (təkrar)
15:00 Kanal S Xəbər
15:15 T/S"Eliza haradadır?"
16:00 Şou məkan(təkrar)
17:00 Şərəfli ömür (təkrar)
17:30 Sənədli film
18:30 Hit-mix+
19:30 Kanal S Xəbər
20:00 Kim haqlıdır?
21:00 T/S"Eliza haradadır?"
22:00 "SMSlə seçilən B/F"
23:30 Kanal S Xəbər
23:45 B/F "İki dəfə dönmüş"
01:20 Klip
03:00 Efirin sonu

**30 APREL**

08:58 Günün proqramı
09:00 Kanal S Xəbər
09:10 Gün gəlir
11:00 Düyməcik(təkrar)
11:20 Səhhət (təkrar)
12:00 Hit-mix
13:00 B/F (təkrar)
15:00 Kanal S Xəbər
15:15 C/F "Valli"
16:40 Avand olsun (təkrar)
17:00 Hit-mix+ (top10)
18:00 Nə bişirim?
19:00 T/S "Dağ siçanının macəraları"
19:30 Kanal S Xəbər
20:00 Düyməcik
20:30 Evin içi
22:00 Gəzərsən görərsən
23:00 Sənətkar
23:30 Kanal S Xəbər
23:45 B/F "Əbədi məhəbbət nağılı"
02:15 Klip
03:00 Efirin sonu

**1 MAY**

08:58 Günün proqramı
09:00 Kanal S Xəbər
09:15 Klip
11:00 Düyməcik(təkrar)
11:40 Savaş bitməyib
12:30 B/F (təkrar)
15:00 Kanal S Xəbər
15:00 Sənətkar (təkrar)
15:30 N M TV (təkrar)
16:00 Klip
17:00 Azərlə hər bazar
18:00 Nə bişirim?
19:00 T/S "Dağ siçanının macəraları"
19:30 Şərəfli ömür
20:00 Düyməcik
20:30 Bu həftə
21:30 Şou məkan
22:30 B/F "Sərxoş ustad haqqında əfsanə"
0:30 Kriminal (təkrar)
1:00 Klip
3:00 Efirin sonu

# Dahi həmyerlimiz qarşısında üzü qaralıq

Mətləbə keçməzdən əvvəl həyatda olmuş bir əhvalatı "İpəkçi" qəzetinin sevimli oxucularına çatdırmağı özümə borc bildim. Mən Şəkidəki 91 saylı Texniki məktəbin direktoru olarkən, Leninqradda (hazırda bu şəhər Sankt-Peterburq adlanır) 1984-cü ilin noyabr-dekabr aylarında texniki-peşə təhsili üzrə rəhbər işçilərin ikiaylıq Ümumittifaq təkmilləşdirmə kursunda oxumağa göndərilmişdim. Orada müxtəlif mövzular üzrə müdavimlərə tanınmış mütəxəssislər mühazirələr söyləyirdilər. İxtisasca filoloq olan bir qadın alim (təəssüf ki, adını yadımdan çıxarmışam) Mühazirəsi zamanı bildirdi ki, Sovet İttifaqının bütün xalqlarının ədəbiyyatları öz inkişaflarına görə məhz böyük rus xalqının ədəbiyyatına, Aleksandr Sergeyeviç Puşkin kimi dühaya minnətdar olmalıdırlar, demək olar, ondan dərs alıblar.

Əlbəttə ki, bu cürə bəyanata bir Azəri övladı kimi, mən heç cürə bəraət qazandıra bilməzdim. Dözə bilmədim, alimə belə bir sual verdim: Azərbaycanda hələ XII əsrdə dahi mütəfəkkirimiz Nizami Gəncəvi "Leyli və Məcnun" poemasını yaradırkən, Rus dövləti hələ təzəcə təşəkkül tapırdı. Necə ola bilər ki, bundan yalnız altı əsr sonra meydana gələn Puşkin kimi uşağa (elə belə də dedim) Azərbaycan ədəbiyyatı minnətdar olsun? "İnsafən, alim-qadın mənimlə razılaşdı və əlavə etdi: "Mən bəzi xalqların ədəbiyyatını demək istəyirdim".

Bəli, bu gün biz, azərilərin iftixarla hamıya cur səsimizlə deməyə haqqımız var ki, bəşəriyyətin ədəbi aləmində özlərini öyən ruslardan və digər əksər xalqlardan çox-çox əsrlərdən qabaq belə söz sahibi olmuşuq, dünya ədəbiyyatı xəzinəsinə incilər bəxş etmişik. Bədbəxtçiliyimiz bir ondadır ki, özümü, necə deyərlər, gözə soxmamışıq, belə demək mümkündürsə, özümüzü ağayana aparmışıq, buna görə də, kölgədə qalmışıq. Bu, danılmaz faktdır!

Götürək elə həmyerlimiz, dahi filosof-mütəfəkkir, dünya ədəbi irsinə sanballı töhfələr bəxş etmiş, Azərbaycan dramaturgiyasının banisi, rəhmətlik Mirzə Fətəli Axundzadəni (Axundov). Onu necə yada salırıq? Pis! Faktlarla bunu izah etməyi özümə vətəndaşlıq borcu sanıram. Dahilərimizi, o cümlədən Mirzə Fətəlini hər il yox, arada bir, tutaq ki, 10, 20 ildən bir yada salırıq, o da ötəri. Əcnəbiləri isə əzizimiz kimi göylərə qaldırırıq. Düşünməyə dəyər!

...Keçən əsrin 60-cı ilinin əvvəllərində şəhərimizin mərkəzi hissəsində təzəcə istifadəyə verilmiş olan kino-teatra bu böyük şəxsiyyətin adı verildi, binanın qarşısında onun büstü (heykəli yox ha...) qoyuldu. İndi gəlin buranın mənzərəsinə tamaşa edək. Kino-teatr ləğv olundu, büstün arxasındakı açıq tamaşa salonu dağıdıldı, yerində çayxana tikildi, sol tərəfdə ərzaq mağazası istifadəyə verildi, sağ tərəfdə isə qonşuluqda təzə ucaldılan yaraşıqlı özəl mehmanxananın müştəriləri üçün avtomobil dayanacağı yaradıldı. Bu da bizim dahi şəxsiyyətimizə olan hörmətsizlik! Yeri gəlmişkən, əmin olmaq istərdim ki, həmin mehmanxananın sahibi, Şəki kənd 115 saylı dairədən Azərbaycan Respublikasının Milli Məclisinə üzv seçilən Cavanşir Feyziyev öz səhvini başa düşəcək, böyük mütəfəkkirin hörmətini, nəhayət ki uca tutacaq, həmin avtomobil dayanacağını büstün yanından ləğv edəcəkdir, bununla da biabırçılığa son qoyacaqdır.

Qeyd etmək yerinə düşər ki, büstün qarşısındakı yöndəmsiz hovuz və mənzərə də əzizimiz Mirzə Fətəliyə qətiyyən layiq deyil və həmin ərazini bütövlükdə güllü-çiçəkli xiyabana çevirmək işi də o qədərdə çətin deyil.

İnternat-məktəbin qonşuluğundakı kiçik bir təpəcikdə vaxtilə, Mirzə Fətəlinin şərəfinə onun ayaqüstü heykəli ucaldılmışdı. Böyük ədibin anadan olmasının 160 illiyi münasibətilə "Pensiyaçılar parkı" adlandırılan ərazinin "Şəki" mehmanxanası ilə üzbəüzdə və M.Ə.Rəsulzadə küçəsində o vaxtlarda fəaliyyət göstərən əhaliyə məişət xidməti kombinatının inzibati binasının girəcəyində "Xatirə bulağı" tikilmişdir. Sonrakı illərdə kimlərinsə bəd əməlləri sayəsində həmin heykəl götürüldü, yoxa çıxdı. "Xatirə bulaqları" sökülərək, yerində ayaqqabı təmiri köşkü və mağaza peyda oldu. Bax, budur böyük ədibimizə edilən hörmətsizliyin bariz nümunəsi!

1982-ci ilin ortaları idi. Mirzə Fətəlinin anadan olmasının 170 illiyinə Şəkidə hazırlıq işləri aparılırdı. Mən artıq yuxarıda qeyd etdiyim kimi, 91 saylı Texniki məktəbin direktoru idim. Bir gün şəhərimizin o vaxtkı rəhbəri, əzmkarlığı, təşəbbüskarlığı, təşkilatçılığı ilə seçilən Nurəddin Mustafayev məni iş otağına dəvət etdi, tapşırdı ki, imkan daxilində yubileyə hədiyyə kimi ədibin eyni formada iki portret-xalçası toxunsun. Hədsiz fərəhlə həmin tapşırığı qəbul etdim. Sabit Rəhman adına Şəki Dram Teatrının o vaxtkı baş rəssamı, həmyerlimiz Qüdrət Məmmədov mənə yardımçılıq etdi, az müddətdəcə xalçanın çeşnisini, yəni rəsm eskizini yüksək ustalıq və peşəkarlıq məharəti ilə hazırlayıb mənə verdi. Məktəbimizin istehsalat təlimi üzrə direktor müavini mütəxəssis Ofeliya Məmmədovanın rəhbərliyi altında iki şagird qızımız fərəhlə, məsuliyyət hissilə dəzgah arxasına keçdi. Vaxt itirilmədən toxuma prosesi başlandı. Az müddətdəcə Mirzə Fətəli Axundovun eyni çeşnidə iki portreti toxundu. Bunlardan birini Nurəddin Mustafayev dahi ədibin Şəkidəki ev-muzeyinə verdi, o birini isə Tbilisi şəhərində keçirilən təntənəli yubiley iclasında Gürcüstanın rəhbəri Eduard Şevardnadzeyə təqdim etdi.

Ötən əsrin 60-cı illərin lap əvvəllərində şəhərimizin şimal-qərb hissəsində böyük bir ərazidə M.F.Axundov adına mədəniyyət və istirahət parkı



meydana gəldi. İdarələrin, müəssisələrin kollektivləri burada canfəşanlıqla iməciliklər keçirirdilər. M.F.Axundovun nəhəng heykəli, onun qarşısında yaradılmış işıqlı, musiqi tərənələri saçan yaraşıqlı su fəvvarələr göz oxşayırdı. Az müddətdəcə baxımsızlıq və səhlənkarlıq ucbatından park öz statusunu itirdi. Heykəlin yan-yörəsi bərbad hala salındı, fəvvarədəki işıq və musiqi saçan aparat götürüldü, park mal-qara otlağına çevrildi. Ərazidə saysız-hesabsız irili-xırdalı ictimai-iaşə obyektləri açıldı...

İndi buraya adamın dili də gəlmir "park" deməyə. Ona görə ki, şəhərimizin keçmiş icra başçısı Nazim İbrahimov buranı elə viranəyə döndərdi ki, gəl görəsən...

"Park"ın qərb tərəfində lap əvvəllərdə əkilmiş ağaclar kəsildi. Nəqliyyat vasitələrinin intensiv hərəkət etdikləri Salman Mumtaz küçəsinə bitişik ara məsafəsi nəzərə alınmadan bir-birinin ardınca müxtəlif təyinatlı özəl obyektlər tikilməyə başlandı. Bəzən də obyektlər tikilirdi, sonra da ortada qalan ağaclar kəsilirdi. Bu və buna bənzər digər özbaşınalıqlara əslən şəkili kimi, heç cürə dözmək olmurdu. Qarşısını almaq üçün respublika Ekologiya və Təbii sərvətlər Nazirliyi qarşısında həyəcan siqnalı qaldırdım. 2007-ci ilin may ayında nazirlikdən nümayəndələr gəldi. Mənim bilavasitə iştirakımla araşdırmalar aparıldı. Kimsə tərəfindən əvvəlcədən xəbər tutulduğundan burada tikinti işləri tez-tələsik yarımçıq saxlanılmışdır. Fakt faktlığında qalırdı, cidanı çuvalda gizlətmək əbəs idi. Ətraflı akt tərtib edildi. Nazirliyin qərarı bu oldu ki, həmin ərazidə aparılan bütün tikililər sökülməlidir və bu işə nəzarət nazirliyin Zaqatalada yerləşən ərazi idarəsinə həvalə edilmişdir. Lakin Şəki rəhbərliyi adı çəkilən nazirliklə sonradan necə "dil" tapdısa, burada tikinti işləri daha sürətlə getməyə başladı. Üstəlik, "park"ın cənub hissəsi güya ki, Calğalı bulaq küçəsinin davamı kimi olaraq birbaşa Salman küçəsinə çıxış adıyla ayrıldı və dövlətin əlavə pul vəsaiti xərcləməsi hesabına geniş məsafədə divar hörüldü. "Park"ın bir daha kiçildilməsindən əmələ gətirilən bu dəhliz hələ də boş saxlanılır. Yəqin keçmiş icra başçısı bu dəhlizi hansısa işbaza "pay" vermək istəyirmiş, amma vaxt ona mane oldu, vəzifədən tez çıxarıldı.

Vaxt gözləmir. Şəki Şəhər İcra Hakimiyyəti, əlaqədar təşkilatlar hərəkətə gəlməlidirlər, dahi həmyerlimiz ölməz Mirzə Fətəlinin ruhu şad olsun deyə, onun 200 illiyi yubileyinə öz töhfələrini sözlə, boş vərəqlərlə yox, əməli işgüzar fəaliyyətləri ilə verməlidirlər, şəhərimizdə onun adıyla bağlı yerlər tam genişliyi ilə laləzara çevrilməli, onun adına və şöhrətinə layiq əlavə tədbirlər görülməlidir. Daim yadda saxlamaq lazımdır ki, M.F.Axundov bütün Azərbaycanımızın fəxridir. Yubiley tədbirlərində iştirak etmək üçün şəhərimizə hər halda respublikamızdan və xarici ölkələrdən çoxlu qonaqlar gələcəklər. Onların qarşısında xəcalətli, üzüqara olmamalıyıq. Ən əvvəl, yuxarıda göstərilən nöqsanlar, buraxılan səhvlər tezliklə aradan qaldırılmalıdır.

***Bayram Mahmudov, təqüdçü.***

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ MÖHTƏRƏM İLHAM HEYDƏR OĞLU ƏLİYEV CƏNABIARINA**

## M Ü R A C İ Ə T

Çox hörmətli əziz prezidentimiz!

Bu müraciətimi Sizə hədsiz fərəh hissi ilə yazıram.

Adi ipəkçi fəhlələr ailəsində andan olmuşam. Doğma şəhərim olan Şəkidə vaxtilə, komsomol, Sovet, mətbuat, həmkarlar ittifaqı orqanlarında məsul vəzifələrdə çalışmışam, şəhər bədən tərbiyəsi və idman komitəsinin sədri, 91 saylı texniki məktəbin direktoru, meyvə şirəsi sexinin rəisi olmuşam. Böyük qürurla Sizə bildirirəm ki, texniki məktəbin direktoru olarkən mərhum rəhbərimiz Heydər Əlirza oğlu Əliyev öz sağlığında birinci dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görüləndə, onun bir qiyafədə iki portreti məhz bizim məktəbdə xalça üzərində toxunulmuşdur. Hansı vəzifədə işləmişəmsə, Vətənə, xalqa namusla, qeyrətlə, təmənnasız xidmət göstərmişəm, təşəbbüskarlıq etmişəm, şəhərimizin ictimai-siyasi siyasi həyatında fəal olmuşam.

Baxmayaraq ki, təqaüddəyəm, amma dövlətimiz naminə yenə qüvvə və bacarığımı əsirgəmirəm. Şəhərimizin mərkəzi hissəsində, mənzərəli yerdə vaxtilə salınması nəzərdə tutulan Heydər Əliyev parkının keçmiş icra başçısı Nazim İbrahimov tərəfindən dağıdılaraq, burada işbazların xidmət obyektləri tikdirmələrinə qarşı barışmaz mübarizə aparmışam, respublikamızın bütün rəhbər orqanlarına, bəzi qəzet redaksiyalarına bu haqda məlumatlar vermişəm, hətta bu barədə Şəki Rayon Məhkəməsində iddia qaldırmışam. Amma Heydər Əliyevə sözdə sədaqətliliklərini bildirən məmurlar bəd əməllərini davam etdirib məni eşitməyiblər.

Cənab prezidentimiz! Siz dövlətimiz üçün həqiqətən can qoyursunuz. Bunu son müşavirədə bir daha sübut etdiniz. Digər aktual məsələlərlə yanaşı korrupsiya və rüşvət xorluğa qarşı amansız mübarizə aparmağınızı qətiyyətlə qarşıya qoymaqla bütün vətəndaşlara, yəni həqiqətən sizi sevən xeyli əksəriyyətə sevinc bəxş etdiniz.

Qeyd edirəm ki, mən 2010-cu il noyabrın 26-da Şəki Şəhər İcra hakimiyyətinin başçısı hörmətli Murad Cabbarlı cənabının qəbulunda olarkən, o özü rəsmi mətbuatla məni dəvət etmişdir. Mən onun müavinlərinin və aparatın şöbə müdirlərinin yanındaca ona təklif etmişdim ki, buradakı vəzifə sahiblərindən heç biri Vətənə sədaqətlə xidmət etmədiklərinə, keçmiş icra başçısının diktəsi ilə işlədiklərinə görə vəzifələrindən çıxarılmalıdırlar.

Bu yaxınlarda eşitdim ki, onun müavinlərindən biri – Eldəniz Qəhrəmanov və tikinti memarlıq şöbəsinin müdiri Yusif Abdurrahmanov, artıq həbs olunublar. Hesab edirəm ki, yerdə qalan digər müavinlər və şöbə müdirləri barədə də bu cür cəza tədbirləri görülməlidir. Dövlət Aparatında yalnız təmiz adamlar işləməlidir. Şəhərimizin yerli nomenklaturada olan əsasən digər məmurları da hər cür cəzaya layiqdirlər.

Onların da ailə-məişət şəraitləri tərəfkeşlik edilmədən yoxlanılsa, aydın olacaqdır ki, əliəyri yolla işləyiblər və ya işləyirlər. Xalqın, dövlətin xidmətçisi yalnız təmiz adam olmalıdır.

Sizin cəsarətli, hünərli addımınızı alqışlayıram, Sizə mənim də inamım qat-qat artıb. Bu yolda sizə daha böyük uğurlar arzulamaqla, ölkəmizin daha da firavan olacağına əminliyimi bildirirəm.

Bir daha Allah sizi xalqımıza çox görməsin, çox sağ olun, cənab Prezidentimiz!

*Sizə dərin hörmətlə,* **Bayram Səlim oğlu Mahmudov,** *təqaüdçü, ali partiya təhsilli.*

***RS:*** *B.Mahmudov bu məktubu redaksiyamıza göndərərək, onun qəzetimizdə dərc edilməsini xahiş etmiş və əlavə olaraq həm də qeyd eləmişdir ki, bu məktub onun tərəfindən fevralın 9-da poçt vasitəsi ilə Prezidentə göndərdikdən sonra Şəki Şəhər İcra Hakimiyyətinin ümumi şöbə müdiri Sadiq Yusifov martın 5-də onu yanına dəvət etmiş və o, otağa daxil olan kimi, hüquq şöbəsinin müdiri İlqar müəllim də oraya çağrılmışdır. B.Mahmudov hesab edir ki, onun Müraciəti icra aparatını narahat edib və əlavə olaraq həmin müraciətin surətini oxuyub tanış olmaları üçün, həm də onlara təqdim etmiş və vurğulamışdır ki, Prezidentə müraciət etmək onun Konstitusion hüququdur, öz subyektiv fikridir, bunun üçün o, heç kimdən, o cümlədən də icra aparatından da razılıq almalı deyildir, əgər narazılığı varsa, məhkəməyə müraciət edə və barəsində iddia qaldıra bilərlər. Məlum Müraciəti ilə əlaqədar şəhər icra aparatına dəvət edilməsini, B.Mahmudov ona qarşı təsir və təzyiq göstərilməsinə cəhd kimi qiymətləndirir.*

# Vətəni və olmayan vicdanlarını qəpik-quruşa satan hakimlər, yaxud "Ali Məhkəmə" deyilən "sirk"in " fokusyor "ları

2009-cu ilin 29 iyul tarixində Bakı şəhərində vəhhabi məzhəbli T.Hüseynov şərti adı Əhməd Məmmədov olan çəxsi öldürmək məqsədi ilə ona soyuq silahla – bıçaqla, hücum etmiş və 2 bıçaq zərbəsi ilə onu ağır yaralamışdır. Ölümcül yaralanan Ə.Məmmədov, yalnız möcüzə nəticəsində həyatda qalmışdır. Lakin cinayətkar, bəzi vəzifəli şəxslərin həmkəndlisi olduğuna görə bu işə Ağır Cinayətlər Məhkəməsində yox, ağır cinayət işlərinə baxmağa səlahiyyəti olmayan Sabunçu rayon məhkəməsində baxılır. T.Hüseynov məhkəmədə cinayəti bilə-bilə etdiyini və əməlindən peşman olmadığını nümayişkaranə surətdə dəfələrlə vurğuladığı halda Sabunçu rayon məhkəməsi "qət" edir ki o, hadisəni törədən vaxt anlaqlı olmayıb (№1 (008)-438\2009) və necə ki daha əvvəllər də bir neçə dəfə bu cür cinayət törətmiş, lakin "day-day"larının köməyi ilə məsuliyyətə cəlb olunmamışdı, eləcə bu dəfə də həbs olunmur; 1 aylıq "məcburi müalicə"dən sonra sərbəst buraxılır! Zərər çəkmişin bu qərardan apelyasiya şikayəti verməsinin qarşısının alınması üçün isə qərar ona təqdim edilmir.

Zərər çəkmiş xeyli vaxtdan sonra nəhayət, həmin qərarı əldə edir və apelyasiya müddətinin buraxılmasının üzrlü hesab olunması barədə Sabunçu məhkəməsi qarşısında vəsatət qaldırır. Lakin onun haqlı vəsatətini rədd edilir. Bu qərardan verdiyi apelyasiya şikayəti də əsassız olaraq rədd edilir. Nəhayət, Ali Məhkəməyə kasasiya şikayəti verir. Öz hüquqlarını müdafiə etmək baxımından bu instansiya zərər çəkmiş üçün sonuncu instansiya idi.

29.12.2010-cu il tarixdə Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət kollegiyasının hakimləri İlham Məmməd oğu Cəfərov – sədrlik edən və məruzəçi, Tapdıq Şükür oğlu Mahmudov, Əli Səlim oğlu Seyfəliyev CPM-nin 418.2.7, 419.5, 419.8 və 419.10.2 maddələrinə zidd olaraq, yəni onu dəvət etmədən, məhkəmə barədə ona məlumat vermədən və onun iştirakı olmadan onun kasasiya şikayətinə baxırlar. Və bu qanunsuzluqdan sonra, onun haqlı iddiasını rədd etmək üçün əsil sirk foksu göstərirlər. Belə ki apelyasiya hüququnun buraxılmasının üzrlü hesab edilməsi barədə zərər çəkmişin şikayət və vəsatətinə əvvəlki 2 instansiya məhkəmələrində baxılarkən, işin içində Sabunçu rayon məhkəməsinin №1 (008)-438\2009-cu il tarixli qərarının zərər çəkmişə təqdim edilməsi barədə heç bir sənəd, yaxud qəbz olmamışdır, çünki həmin qərar ona göndərilməyib, necə ki yuxarıda qeyd olundu və onun vəsatət və şikayətinin rədd edilməsi barədə qərarlarda da belə bir sənədin, yaxud qəbzin mövcudluğundan bəhs edilməyib. (Məsələn, Sabunçu rayon məhkəməsi onun "Apelyasiya müddətinin buraxılmasının üzrlü hesab edilməsi" barədə vəsatətini rədd etmək üçün yalnız sadəcə, cinayətkarın atasının sözlərini əsas götürmüşdür – Cinayətkarın atası dedi ki, vəsatət əsassızdır, ona görə də məhkəmə vəsatəti rədd edir?!) . Bəli, "Ali Məhkəmə" deyilən sirkin "foksyor"ları, yəni İlham Məmməd oğu Cəfərov – sədrlik edən və məruzəçi, Tapdıq Şükür oğlu Mahmudov, Əli Səlim oğlu Seyfəliyev əsil sirk foksu göstərərək işin içində belə bir sənəd "tapırlar"; guya işin içində Sabunçu rayon məhkəməsinin 10 dekabr 2009-cu il tarixli (№1 (008)-438) yekun qərarının, qəbul olunandan 1 gün sonra zərər çəkmişə təqdim edilməsi barədə qəbz var?! Və bu foksu əsas götürərək, lakin həm də CPM-nin daha bir - sayca 5-ci maddəsinə, 419.11 maddəyə zidd olaraq, hansı ki həmin maddədə göstərilir ki, "Kasasiya instansiyası məhkəməsi birinci və ya apelyasiya instansiyası məhkəməsində məhkəmə baxışının predmeti olmayan faktları müəyyən edə və ya onları sübuta yetirilmiş hesab edə bilməz", zərər çəkmişin öz hüquqlarını müdafiə etmək baxımından sonuncu instansiya şikayətini – kasasiya şikayətini də rədd etdilər!

Vətəni və olmayan vicdanlarını qəpik-quruşa satan, əl boyda qərarda CPM-nin 5 maddəsini (!!!) kobud şəkildə pozan, "fokusyor" hakimlərin sayəsində, bu gün xüsusi ictimai təhlükəli şəxs, heç bir cinayət törətməyibmiş ictimaiyyət içində sərbəst şəkildə gəzib-dolaşmaqdadır. Zərər çəkmişin şikayətinə isə heç kim cavab vernir, daha doğrusu cavab verə bilmir; nə Məhkəmə Hüquq Şurası nə də Ali Məhkəmənin sədri. Axı nə cavab verə bilərlər ki? Bu, Azərbaycan reallığıdır!

***www.ipekchi.info;***
"İpəkçi" qəzeti,
15 mart 2011-ci il, № 2(276)



İ.M.Cəfərov



Ə.S.Seyfəliyev



T. Ş.Mahmudov

**Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev cənablarına**
**Surəti (məlumat üçün): Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarına**

Nəzərinizə çatdırmaq istəyirik ki, "İpəkçi" qəzetinin 15 mart 2011-ci il tarıxli, 2(2276)-ci sayında "Vətəni və olmayan vicdanlarını qəpik-quruşa satan hakimlər, yaxud "Ali Məhkəmə" deyilən "sirk"in " fokusyor "ları" başlıqlı məqalə dərc olunmuşdur. Məqalədə Ali Məhkəmə hakimləri İlham Məmməd oğu Cəfərov, Tapdıq Şükür oğlu Mahmudov və Əli Səlim oğlu Seyfəliyevin CPM-nin 5 maddəsini pozmaqla Azərbaycan Respublikası adından qərar çıxarmaları, ağır cinayət işinin Sabunçu məhkəməsində baxılmaqla (!!!) ört-basdır edilməsi və s. qaqnunsuzluqlardan bəhs olunur.

Təəssüflər olsun ki, xeyli vaxt keçməsinə baxmayaraq, nə bu hakimlər cəzalandırılıblar, nə də saxta yolla qəbul olunmuş qətnamələr ləğv edilib. Zərər çəkmişin şikayətlərinə isə Ali Məhkəmədən yalnız konkret olaraq bu cavab gəlir ki, "Sizin əlavə kasasiya qaydasında şikayət vermək hüququnuz yoxdur"?!

Sual edirik, bəs Ali Məhkəmə hakimlərinin necə, CPM-nin 5 maddəsini (!!!) pozmaq hüquqları varmı? Cənab Ramiz Rzayev! Bəs Siz niyə bu qeyri-qanuni qərarın ləğv edilməsi üçün əlavə kasasiya qaydasında şikayət vermirsiniz, axı Sizin ki təqdimat vermək hüququnuz var?

Bütün bu yazılanlardan sonra, xahiş edirik ki, "İpəkçi" qəzetinin 15 mart 2011-ci il tarıxli, 2(2276)-ci sayında dərc olunmuş "Vətəni və olmayan vicdanlarını qəpik-quruşa satan hakimlər, yaxud "Ali Məhkəmə" deyilən "sirk"in " fokusyor "ları" başlıqlı məqaləyə rəsmən münasibət bildirəsiniz və saxtakar hakimləri də istefa verməyə dəvət edəsiniz. Belə ki, dünyanın hər yerində saxtakarlıq cinayət hesab olunur və dünyanın hər yerində cinayət törədən şəxs də cinayətkar hesab olunur və əgər hakim də cinayətkardırsa, onun hakimlik etməyə ən azından mənəvi, Azərbaycan istisna olmaqla, dünyanın əksər ölkələrində isə hüquqi cəhətdən haqqı yoxdur!!!

**Aydın Məmmədov,**
*"İpəkçi" qəzetinin baş redaktoru,*
*№8 (713) 15 aprel 2011-ci il*

Həmtəsisçilər:
1. M.Salis;
2. Aydın Məmmədov.
Redaktor: A. Məmmədov.

Şəhadətnamə: 176
Hesab nömrəmiz: 23433080000.
"KAPİTALBANK"ın Şəki Filialı, kod: 200073
Müxbir hesabı: 7028010000

VÖEN: 300021785,
Çapa təqdim edildi: 26.04.2011.
Sifariş: 1412
Tiraj: 500.

Ünvanımız:
Az.5500. Şəki şəhəri,
Z.Bünyadov, 33.
E-mail: aydin.salis@gmail.com

Tel.: 055 793 23 83
012 451 20 32
0177 423 15

"İpəkçi" qəzetinin kompüterində yığılmış və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.

Qəzet 1993-cü ildə Salis və Aydın Məmmədovlar tərəfindən təsis edilmişdir